DÜNYANIN BƏZƏYİ

Antologiya

Naxçıvan - 2009

Naxçıvan
Muxtar Respublikasının
85 illiyinə həsr olunur

Elman Həbib

TORPAĞIN YAŞIDI

(lirik poema)

Proloq əvəzi

Bu yerə torpağın yaşıdı desəm,
Nə torpaq inciyər, nə günəş küsər,
Bu yerə torpağın yaşıdı desəm,
Torpaq gülümsəyər, günəş gülümsər.

Torpaq! Kürəmizin dörddən biridir...
Dörd yanımız sudur, özümüz torpaq.
Ancaq neyləyək ki, torpaq iridir,
İlk andım, son andım torpaqdır ancaq.

Dünyaya gəlişim yadımda deyil,
Dünyadan gedişim necə olacaq.
Bir onu bilirəm, təkcə əlim yox,
Gözüm də torpaqdan ayrılmayacaq.

Bir əl uzanacaq gözümə mənim,
Bir ovuc torpaqla o qapanacaq.
Torpaq olacaqdır mənim Vətənim,
Əbədi ünvanım torpaqdır ancaq.

Bu yerin günəşi, torpaqdan sərin
Naxçıvan ürəyi günəş boydadır.
Mənim qeyrətimin, itiliyimin
Mənim namusumun torpaqdır adı.

Yer də övlad kimi doğulub bəlkə,
Dünyanın sonuncu övladı olub

Doğub bələməkdə, əkib-biçməkdə
Dünya övladları içində təkdir,-
Başqa planetlər insan sözünü
Tənbəl şagird kimi bəlkə də bir vaxt
Bizim kürəmizdən öyrənəcəkdir
Nə qədər uymalı işlərimiz var...
Qoy yerə uysunlar, yer bar verəndir.
Namusu, vicdanı örnək tutanlar
Torpaqla, Torpaqla, Torpaqla təndir.
Nə qədər uymalı işlərimiz var...
Torpağın gözünün içinə düz bax.
Torpağın yaşıdı olan adamlar,
Rəngin də torpaqdır, gözün də torpaq.
Yaşımdan qabağın sözün danışdım,
Başımda fikirlər düyünləşdilər.
Dünən əcdadımı xatırlamışdım,
Yenidən, yenidən bu günləşdilər.

Üz-gözündən nur tökülən o ağsaqqal,
O ağbirçək babalarım, nənələrim
Əsrlərin yaddaşında mənə çatıb.
Baxıram o boy-buxuna mənimkidir,
Rəngi qonur torpağınkı
Gözlər dərin dənizindir,
Axıb gələn şirin səsi,
gur nəfəsi
çayımındır, çeşməmindir.
Hamısını niyə sayım,
Bənzəyişlər nə qədərsə, o qədərdir...
Bəlkə mindir,
Ya milyondur!

İnsanlığın ünvanını
Damla-damla,
Zərrə-zərrə qoruyandır.
Əcdadımın sifətində...
Yox saymıram, nə gördüm mən.
Baxışından din-bərəkət aşıb-daşdı,
Günəş doğdu gözlərindən.

II

Naxçıvan, ay mənim müqəddəsliyim...
Mənim ilk müəllimim, ilk də dərsliyim.
Səni tanımayan yaxına gəlsin
Onun söz-söhbəti qurtaran deyil,
Həmişə, həmişə önündə əyil,-
Özü qaldıracaq ayağa səni,
Tapşırın, güvənin, torpağa məni.

Mənim iki əlim, iki ayağım
Torpağı görməyə bir cüt gözüm var.
Üzdə görünməyən bir ürək ağrım,
Torpağın həmişə həmdəmi olar.
Hələ ki, ürəyim yüyənsiz ürgə,
Hələ təzə-təzə sözüm nallanar.
Çətin bu torpaqdan ürəyim ürkər,
Çətin bu torpaqda gözüm allanar.
Hamıya doğmayıq, hamıya dostuq...
Biz torpaq babanın nəvələriyik.
(Dünənki Fironlar torpağı tutdu,)
Biz günəş nənənin zərrələriyik.

Odumuz, suyumuz dünyaya çatar,
Süfrəmiz açıqdır dünya üzünə.

Kürəmiz həmişə yol gedən qatar,
Torpağın yaşıdı qoca Naxçıvan
Əbədi qoşulub yer kürəsinə.

Daimi bir səfər, torpaq hikməti...
Nə son dayanacaq, nə son görüş var.
Onun nifrəti də, eşqi də qəti...
Nə ondan çıxış var, nə də giriş var.
(Çıxış qapıları kosmodromlar)
Yox, yada salmayaq torpaq yazıqdır.
Bir də nə gizlədək, onsuz da onlar
Raket süngülərlə qazıq-qazıqdır.

Yaxamı qırağa çəkmirəm, inan,
Dünyanın dərdləri dərdim-sərimdir.
Qanadlı sözlərim doğma torpaqdan
Düşmənə tuşlanan raketlərimdir.

Torpağım həmişə hazır, ayaqda,
Ürəyim həmişə əli tətikdə.
Ürəyim yamanca yatıb marıqda,
Bir gözəl görübdü bənövşəlikdə.
Əlini sinəmin üstünə qoy bir...
Naxçıvan nəbzidir, eşidirsənmi?!
Həmişə beləcə, hirslə döyünür,
Qəlbinə kim dəyib, mənmi, ya sənmi?!

III

Naxçıvan, ay mənim müqəddəsliyim!
Əsrin yaddaşından səni səsləyim,
Bəlkə sən səsimə səs verən oldun,
Bəlkə təzə çıxan bir dəstə otsan,

Bəlkə korun-korun yanan bir odun.
Hər nəsən, torpaqsan, qibləgahımsan
Mənim ilk pənahım, son pənahımsan.

Torpağın yaşıdı, bu yerin adı,
Onun hər mücdəsi torpaqtək isti.
Vətəndir bizlərə torpağın altı,
Vətəndir bizlərə torpağın üstü.

Bir bənzətmə deyim, oxşamasa da,
Kim ki, ələk görüb dünyaya bənzər,
Hər narın gözlüyü bir ömür yolu,
Onu ələyən də torpaq özüdür,
Elə bələyən də o özü olur.

Naxçıvan, ey ulum! Tariximizin
Yolu səndən keçir, yaddaşı sənsən.
Torpaq, ulu torpaq! Tariximizin
Başı üstə bitən ad daşı sənsən.
Boylan Gəmiqaya dağına sarı,
Ömrümə, günümə bir əl uzanır.
Yazılı daşları, sal qayaları
Nə tarix unudub, nə dünya danır.

Ova çıxan igid burda daşlaşıb,
Günəş qayalara əsir düşübdür.
Ocağın alovu zirvəni aşıb,
Günəş qayalarda yanıb, bişibdir.

Torpağı günəşdən qüdrətli bilib,
Günəşi torpağa tay tutubdular.
Əsrdən-əsrə adlayıb gəlib,
Əsrdən-əsrə pay tutubdular.

Torpaq oğulları, yer oğulları
Əsrin yalmanına əl atıbdılar.
Bu dəli kəhərlər, dolu kəhərlər
Bu yolda çox atıb, tutub onları
Axır son mənzilə gəlib çatıblar.

Torpağın yaşıdı, doğma Naxçıvan!
Ömrün naxış-naxış, çiçək-çiçəkdir.
Sənin bir kaşına toxunsaq inan,
Onlar da insan tək dillənəcəkdir.

Neçə əsrlərdir Mömünə Xatın,
Torpaq elçisitək dayanıb məğrur.
Əcəmi ağlını ona tay tutun,-
Yenə torpağındır bu böyük uğur.

IV

Naxçıvan, ey mənim, müqəddəsliyim
İstərəm oğlumu, qızımı bu dəm
Bura səslıyim.
Arpaçay, Naxçıvan, Bəlkə, Dübəndi.
Keçsin şəhərləri, aşsın neçə kəndi.
Gəlsin görüşünə torpaq, ulu torpaq!
Qoşulsun gülüşünə torpaq, ana torpaq!

Naxçıvan şəhərində "Təbriz" otelinin acılışı mərasimində oxuya bilmədiyim şeir. Şeir "Təbriz" poemasındandır, 1984-cü ildə yazılıb.

Açın qapıları, açın taybatay
Xidmətçi qadınlar, kənarda durun.
Açılış gününə gəlib Günəş, Ay
Qırmızı lentini kəsin, buyurun.

Bu da Araz qayçı, əlimizdədir
Buyur, Günəş qonaq, buyur, Ay qonaq.
Təbriz bundan sonra elimizdədir,
"Təbriz" bundan sonra bizim olacaq.

Əlini əlimə ver sən də dostum...
Sənin əlin qabar, mənim ürəyim.
"Təbriz"i görəndə az qaldım uçum,
Vətəndə Vətəni niyə görməyim?!

Sən daşı qoyduqca daş üstə burda,
Mənim fikirlərim tarazlanırdı.
"Təbriz" yol gəlirdi nisgilli yurda,
Gözümdə göz yaşım Arazlanırdı.

İndi, göz dəyməsin, ucalığa bax!
Ürəyim sevincdən yerində durmur.
"Təbriz" bundan sonra bizim olacaq,
Vətən unudulmur, Vətən unutmur.

"Təbriz" qonaq yurdu, qonaq düşgəyi
Onun adı bizim, özü qonağın.
Təbriz göyərməyi, Təbriz bitməyi
Qismətinə düşüb bizim torpağın.

Daş üstə göyərdi Vətənin adı,
Gözümüz o taydan lap o tayadı.
Gələn qonaqları aradım, baxdım,
Təbrizdən "Təbriz"ə gələn olmadı.

Açın qapıları, taybatay açın
Qonaqlar gəlibdir "Təbriz"imizə.

Dəryadan balıqlar, zirvədən laçın
Teleqram göndərib şad günümüzə.

VI

Torpaq, ulu torpaq! Bitirdiyin nə?!
-Bitirdiyim dağlar!
-Yetirdiyin nə?!
-Yetirdiyim insan!
-İtirdiyin nə?!
-İtirdiyim hər şey! İtiyim insan!
İtiyim axar su,
İtiyim dəniz.
İtiyim Arazdır, bir də ki, Təbriz.
Bir də qayıtmayaq o söz-söhbətə
Birdəfəlik gələk bu qənaətə
-Nə qənaətə?!
-Yoxsa deyəcəksən
Köhnəlib dərdim?!
Qızıl Ordu gəldi torpağımıza,
Sərhəd dirəkləri olub göyərdim.
Yaz gəldi yarpaqlamadım,
Payız oldu həmən-həmən.
Qışda dondurmadı məni.
Araz axır, baxıram mən.

VII

Naxçıvan! Ey mənim atəşim, odum.
Çox çətinə düşüb arxeoloqlar,
Sinəndə yaşını axtarır onlar.
Dəmir sikkələri, saxsı qırığı,

Bir yanı çürümüş qılınc dəstəyi.
Sənin ad günündən xəbərdar kimi
Bu günə danışır, ötən hər şeyi.
Deyirlər, torpağım beş min il
Yaşın var, buna biz şəkk eləmirik.
Torpaq, ulu torpaq böyüklüyünü
Bəlkə də çoxumuz dərk eləmirik.
Sinnin hara çatıb?! Özün cavansan.
Hər yanın alışıb yanan çıraqdır.
Sən necə xoşbəxtsən, nə firavansan
Kədər də, qüssə də səndən uzaqdır.

Naxçıvan, ey mənim, şöhrətim, şanım!
Yeni günlər gəldi torpağımıza,
Təzə işıq gəldi günəşimizə,
Təzə rəng verildi yarpağımıza.
Suyumuz ayrı cür axmalı oldu,
Gözəllər ayrı cür baxmalı oldu.
Xışdan tutan əlim, tutdu qələmdən
Elim azad oldu dərddən, ələmdən.
Ömründən, günündən keçən bu illər
Ömrünə, gününə bahar gətirib.
Barlı-bərəkətli bir ocaq kimi
Bu odlar yurdunda səni bitirib.

Doğma Naxçıvanım, sənin adınla
Həmişə, hər yerdə fəxr edəsiyəm.
Əgər lazım gəlsə sənin yolunda
Bir gündə ölümə mən gedəsiyəm.

Torpaq, ulu torpaq! Ulu Naxçıvan
Qaldır bayrağını ənginliklərə.

Gərək elə yanaq sənin odundan
Pay düşsün öndəki yüzilliklərə.

VIII

Adına torpağın yaşıdı dedim,
Adınla fəxr etdim ömrüm uzunu.
Bəlkə torpaq sanı yaşaya bildi
Kim ki, səndən alıb öz qürurunu.

Kim ki, səndən alıb öz vüqarını
Sənin alqışına alqış qatacaq.
Kim ki, sənə verib ixtiyarını
Bu torpaq durduqca alqışlanacaq.

Zamanın əlitək ürəyin qabar,
Ağrılar yaşadıb hər ötən günü.
Səni duymaq üçün, anlamaq üçün
Gərəkdir anlayaq böyüklüyünü.
Qiymətin göylərdən verilib sənin,
Sözü bir, andı bir torpağım mənim.
Ağlındır ən böyük xəzinələrim,
Ağlındır ən böyük yarağım mənim.

Nəfsindən aşağı durur dağ-dərə,
Adı müqəddəsdir, adı tərtəmiz.
Ona varlığıtək göz dikənlərə,
Bir qəlbdən süzülür Vətən nəğməmiz.

Naxçıvan! O mənim əzmim, qüdrətim.
O sənin, o bizim qürurumuzdur.
Bu əziz günündə səcdənə gəlim,
Adın şərəfimiz, haqq yolumuzdur.

Haqdan tutan haqqa çatar...
Haqdan tutdum, haqqa çatdım.
Xalqdan tutan xalqa çatar
Xalqdan tutdum, xalqa çatdım.
Xalq sevəni allah sevər,
Allahın nuru üstündə.
Yolunuz ağ yola dönsün,
Naxçıvanın ağ günündə.

Bu ağ günlər eşqiylə biz,
Çox zamanlar keçəsiyik.
Arzuların, əməllərin
Genişlənən küçəsiyik.

Hara baxsan Naxçıvanda
Gül açdı hər arzusu.
Burda hamı bir nəfərdir,
Bir zamanlar bu birliyin,
Bu cəmliyin tamarzısı
Biz idik, biz.
Bir zindana döyülmürdü
Əlimizdə çəkicimiz.
Onda millət doğram-doğram,
Onda millət kəsik-kəsik,
Şükürlər ki, bir bayrağın
Dalğasında birləşmişik.
Bir zamanlar ümidimiz,
İnamımız, sabahlara
Gümanımız qalmamışdı.
Xırmanımda dən demirəm,
Bəlimimiz,

Samanımız qalmamışdı.
Dağılmışdı, nə vardısa,
Yadellinin əlləriylə,
Apar-apar sellәriylə
Dağılmışdı.
Bu torpağın dənizi də,
Qurusu da,
demisi də, sulusu da.
İnək kimi sağılmışdı.
Sağılmışdı yad əllərə,
Yad ovuca sağılmışdı.
Alaq-alaq,
Yonca-yonca sağılmışdı.
Vətən evi zərrə-zərrə,
Qram-qram dağılmışdı.
Naxçıvanım o boşluqda
Duran millət öz gücünə,
Qəməsinə, ülgücünə
Axır bir gün arxalandı
Arxalandı qüdrətinə,
Arxalandı qeyrətinə
Bu torpağı öz çiynində
Saxlayanın cürətinə,
Zamanları aşıb keçən,
Pisliкləri biçib keçən
Bir insanın xilqətinə
Arxalandı Naxçıvanım.
Heydər kimi bir oğlunun
Çiyinləri üstə durdu,
Və dayandı Naxçıvanım.

Sərhədləri qorunduqca
Bütövləşdi, məğrurlaşdı.
Deməyin ki, adi torpaq,
Adi daşdı Naxçıvanım.
Eşqi ilə yananların
Yollarında məğrur duran,
Bir qardaşdı Naxçıvanım.
Etibarlı əllərdədir
Gəmiqaya zirvəsinin
daş sükanı.
Oğulları bu dünyaya
Tanıtdırıb Naxçıvanı.
İndi qüdrət sahibləri
Bu sükanın arxasında
Durub məğrur, durub mətin,
Asimanın arxasında,-
Yerin göyə məhəbbəti
Yerlər göylə burda qoşa,
Qoşa hikmət, qoşa sözdür
Azərbaycan ocağında,
Qoşa oddur, qoşa közdür.
Əllərini uzatsa o,
Əli çatar hər bir yana.
Urmiyaya, həm Təbrizə,
İrəvana, və Zəncana.
Araz boyu körpülərim
Az olsa da dözməliyik.
Araz bir gün körpülənər
Deyər bizə, keçin, keçin.
Araz bir gün zəmilənər,

Deyər bizə, biçin,biçin.
Qəmqarışıq nələr varsa
Biz də onda biçək gərək.
Vətənimin dan yerinə
Günəş kimi köçək gərək.
Torpağımın yaşıdı sən,
Qurban olum boyuna mən.
İstəyimdə odur ki, bax
Qoy, bol olsun təravətin,
Sənin odun, məhəbbətin
Yolumuza nur çiləsin.
Bu məhəbbət mənim bəsim,
Bu məhəbbət sənin bəsin.

DANIŞIR NAXÇIVAN

Epiloq əvəzi
(naturadan rəsm)

Haçadağdan günəş məni salamlar,
Deyər sənə min zəfərdən salam var.
Zərrə-zərrə tökülürəm ovcuna,
Qələbəyəm hər qızına, oğluna.
Pürcuvarda mən qara, ağ şanıyam.
Mən bu odlar ölkəsinin dözümdən,
Cəsarətdən tökülmüş nişanıyam.
Hər ürəkdə öz yerim var, sözüm var,
Dost yolunda hər an mənim gözüm var.
Ümmanlarda bir bulaq nəğməsiyəm,
Zirvələrdə mən qartal nərəsiyəm.
Bu nərədən başlayar dağ çayları,
Silkələnər yerin dərin layları,

Duz dağımda sel başlanar, duz seli,
Axar gedər ilin bütün ayları.
Badamlıya təşnə oldum, Şahbuzda,
Ordubadda gözüm qaldı bir qızda.
İpək kimi o gözələ vuruldum.
Toxuduğu ipək tel tək qırıldım,
Neçə yerdən düyün vurdu o mənə;
Görüşməyə söz vermişdi dünənə.
Ha gözlədim, görüşümə gəlmədi,
Ayağına getməliyəm mən yenə.

Sədərəyim baş səngərim, qalamdı.
Culfa mənə Təbrizimdən salamdı.
Sağ əlimdir, sərvətimdir Şərurum,
Babək mənim qəhrəmanlıq qürurum.
İndi sözü qılıncından itidir,-
Qəhrəmanlıq xalqımın sərvətidir.
Onu əsrlərdən çəkib gətirən
Bir təsib, bir Heydər məhəbbətidir.
Özümdən nə deyim, nə deyim daha,
Sözümü Cəlilim, Cavidim deyib.
Sözümü Heydərim, öndərim deyib.
Sözümü İlhamım, Vasifim deyir.
Mən hər gün günəşin qapısın döyüb:
Gedirəm, gedirəm üzü sabaha.

KLASSİK ƏDƏBİYYAT

CÜMHURİYYƏT
(Respublika)

Vətəndaşlar!

Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri və o cümlədən də biz müsəlmanları məşğul edən tək bircə məsələdir:həmin məsələ cümhuriyyət məsələsidir.

(B o r c u m u z)

Belə olan surətdə biz tək Avropa aləmindən və mətbuatdan az-çox xəbərdar olanların borcudur ki, qardaşlarını yoxlamaq babətdən hərdənbir onları bir yerə cəm edib, belə-belə məsələlərdən söhbət açsın, ta ki, bilməyənlər bilib, eşitməyənlər eşidib, dünyanın övzasından və əhvalından bəqədri-imkan xəbərdar olsunlar.

(M ə n a s ı)

Vətəndaşlar!

Cümhuriyyət, yəni latınca "Respublika"elə bir höküməta deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn Firəngistan, İsveçrə və qeyriləri.

(T a r i x i)

Pis olmaz ki, cümhuriyyət deyilən üsuli-idarənin tarixini də müxtəsər surətdə yada salaq.

Vətəndaşlar!

Cümhuriyyət üsuli-idarəsi təzə deyil:qədim yəhudilər, germanlar,yunanlar və rumlar tarixin çox əvail vaxtlarında cümhuriyyət idarəsi ilə yaşayırdılar və lakin həmin qədim zamanlarda bir tərəfdən ağalıq və digər tərəfdən qulluq o dərəcədə idi ki, ədalətin və müsavatın yoxluğundan və ümumiyyətcə millətlərin avamlığı bərəkətindən qədim cümhuriyyət idarələri davam edə bilmədilər. Axırül-əmr nadan məxluqat öz yaxalarını yenə zalım padşahlar ixtiyarına verdilər.

Qədim əsrlərdən keçəndən sonra gəlib çıxırıq orta əsrlərə və burada cümhuriyyəti görürük Şvetsariya məmləkətində. Bu həmən cümhuriyyətdir ki, indi də davam edir.

Təzə əsrimizin cümhuri hökümətlərinin biri Amerika cümhuriyyətidir ki, tarixi-miladiyənin **XVIII** əsrinə kimi ingilis hökumətinə tabe idi və məhz **XVIII** əsrdə ingilisdən ayrılıb, "Cəmahiri-müttəfiqə" adı ilə şöhrət tapdı ki, rusca dəxi deyilir: Severo-Amerikanskiye Soedinennie Ştatı.

Amerikadan sonra gəlib çıxırıq Firəngistana ki, burada üç dəfə inqilab üz verəndən sonra axırda cümhuriyyət idarəsi payidar olub, həmişəlik möhkəmləşdi. Firəngistan inqilabları ittifaq düşüblər birincisi miladiyyə tarixinin 1789-cu ilində, ikincisi 1848-ci ilində və axırıncısı 1870-ci ilində.

Firəngistandan da keçdikdə Amerikanın orta və cənub məmləkətləri və habelə Portuqaliya və Braziliya padşahlıq idarəsini dəyişib, cümhuriyyət qəbul

ediblər.

Bu saydığımız cümhuriyyətlərdən savayı, necə ki, Afrikada, habelə də Avstraliyada kiçik cümhuriyyətlər var ki, onların hamısını burada saymağın lüzumunu görmürük.

(İ d a r ə)

Vətəndaşlar!

Qabaqda ərz olunub ki, cümhuriyyət üsulu mocibincə məmləkətin idarəsi camaatın öz ixtiyarındadır. Camaat dedikcə vətənin sahibidir.Dəxi heç bir kəsin ixtiyarı yoxdur ki, özünə padşah adı qoyub, millətin rəyindən kənar məmləkət işinə qarışsın. Məmləkət müəyyən qanunlar gücü ilə idarə olunur. O qanunları yazan və təsdiq edən millətin məbusları, yəni vəkillərdir. Məmləkətin rəisinə "prezident" deyilir. Prezidenti ya millət özü seçir, ya parlaman, yəni millət vəkilləri seçir. Prezident məmləkəti idarə etməyə özünə köməkçi hesabında vəzirlər təyin edir. Cümhuriyyətlərin bəzisində vəzirlər məhz prezidentə tabedirlər:bəzi cümhuriyyətlərdə vəzirlər məclisi-məbusana tabedir. Bəhərhal, xah vəzirlər, xah bunların rəisi hesab olunan prezident millətin yanında cavabdehdirlər.

(Se ç k i)

Vətəndaşlar!

Cümhuriyyət idarəsinin seçkisinin dörd vacib şərtləri var, odur ki, cümhuriyyət seçkisinə dörd üzvlü, yainki dörd hissəli seçki də deyilir:

Bu şərtlərin əvvəlincisi ümumilikdir, yəni

məmləkətdə yaşayan nüfusun cəmisi seçkidə iştirak etməlidir,bilatəfavüti-sinif, cins, din, yəni açığı budur ki, seçkiyə kişilər ilə övrətlər də, erməni də, müsəlman da, xan da və rəiyyət də durmalıdır.

Bu dörd şərtlərin ikincisi seçkinin müsavi olmağıdır, yəni səslərin bərabərliyi. Məsələn, mən əgər xan və bəyəm, mənim də səsim birdir, sən çoban və rəiyyətsən, sənin də səsin birdir. Demək, hər ikimizin səsi bərabərdir.

Üçüncü şərt seçkinin düzbədüzlüyüdür. Bunun mənası budur ki, bir para seçkilərdə, məsələn kəndlilər qabaqca vəkilləri seçib göndərirlər şəhərə. Şəhərdə bu vəkillər qarışırlar qeyri şəhərlərin vəkillərinə. Dübarə vəkillər seçib göndərdilər quberniski şəhərə. Belə olanda aşkardır ki, əvvəlinci seçkidə səs verənlər bilməyəcəklər ki, aya axırıncı seçkinin vəkilləri kimin və hansı məbusun seçkilərinə səs verəcəklər. Bəs, bundan yaxşısı budur ki, hər bir kəs əvvəlinci seçkiyə duranda düzbədüz istədiyi məbusa rəy versin.

Dördüncü şərt seçkinin gizli olmağıdır: yəni səs sahibi səsini elə gizlin verə ki, bir kəs xəbərdar olmaya ki, aya, bu kimə rəy verdi. Çünki aşkardır ki, çox adam var ki, utanmağı və ya qorxunu mülahizə edib, ürəyi istədiyi adamı qoyur kənara, istəmədiyinə rəyi verir.

(A z a d l ı q l a r)

Vətəndaşlar!

Cümhuriyyət idarəsinin bir zinəti də var ki, o

da tamam azadlıqdır. Bu azadlıq da neçə qismdir. Əvvələn, etiqad azadlığı, yəni hər bir fərd keyfi istədiyi dinə sitayiş etməyə, yainki bir dindən əl çəkib, qeyri bir dini qəbul etməyə azaddır. Yoxsa nəinki köhnə və çürük idarənin əsrində məsələn, islamı tollayıb xaçpərəstliyi qəbul edənə ənam verilirdi, amma xaçpərəstin islam dini qəbul etməyə ixtiyarı yox idi.

Üçüncü-birləşmək azadlığıdır.

Dördüncü-çap eləmək, beşinci-danışmaq, altıncı-siyasi partiyalar düzəltmək və yeddinci-dilbir olub, həmtədbir olmaqdır

(A x ı r ı)

Budur cümhuriyyətin ən vacib əsasları!

Vətəndaşlar!

Bir tamaşa edin bu nemətlərə, bu gözəl nemətlərə!

Bir tərəfdən də yada salınız zalım padşahların və onların polislərinin cövr və zülmünü!

Vətəndaşlar!

Əgər bizdə insanlıq hissi hələ ölməyibsə-və güman ki, ölməyib,- o vədə gərək uca səs ilə cümhuriyyət qəhrəmanlarını alqışlayıb deyək:

Yaşasın cümhuriyyət!

Bahar, 1917-ci ildə, Tiflis.

Hüseyn Cavid

QƏZƏL

Olubdu qəlbimə hakim mənim məlalı-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən.

Vətən, vətən deyərək hər diyara səs salıram,
Düşərmi bircə dilimdən mənim məqali-vətən?

Vətən məhəbbətini əmr edibdi peyğəmbər,
Xoş ol kəsə, ona həmdəm olub vüsali-vətən...

Neçün şərafətini, fəxrini verib əldən,
Bu qədər yurduna biganədir ricali-vətən?

Ürək dolubdu nədən, sanki qan piyaləsidir,
Tapıbdır əksini qəlbimdə bəlkə hali-vətən?

Zəmanə ötsə də möhnətli, qanlı qəlbimdən,
Əminəm, heç də silinməz bu ibtizali-vətən.

Tərəhhüm eylə mənə, hüdhüdi-Səba, çatdır,
Səlamımı eşidə bəlkə növnihali-vətən.

Gərəkdi əzm ilə, hümmətlə ittihad etmək!
Sizinlə bağlıdır iqbalü həm zəvali-vətən.

Əgər sual edələr Salikin xəyalı nədir?
Deyin həqiqəti, ancaq olub məali-vətən.

Məmməd Səid Ordubadi

KƏDƏRLİ NAXÇIVAN HADİSƏLƏRİ

("Qanlı illər" əsərindən)

1905-ci ilin may ayının əvvəllərində Bakı erməni-müsəlman toqquşmasından sonra Naxçıvan erməni-müsəlman camaatı artıq həyəcanda idilər. Buna nisbət ermənilər əsla qorxmayıb həmişə müsəlmanlara əziyyət verməkdə idilər . Bir tərəfdən şəhərə belə səs salmışdılar ki, ermənilərdə cürbəcür odlu silahlar olduğundan müsəlmanlara birdən-birə hücum edəcəklər. Ermənilərdə də belə hallar hər dəqiqə gözlənilirdi. Hər vəziyyətdə, erməni siyasətin götür-qoy edəndə elə belə də olmalı idi. Zira, ermənilərin rəyincə, bizim əlimizin üstündə də Qafqazda gərək əl olmasın-deyib hər tərəfdə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar. O zamana qədər əsla qara-qorxu görməmiş Naxçıvan müsəlmanları gecələr ermənilərin qorxusundan eşiyə, gündüzlər isə uzaqda olan əmlaka da gedə bilməzdilər. Ermənilər 6 saat ərzində İrəvandan istədikləri qədər erməni əsgəri gətirməyə gücləri çatdıqlarından daha müsəlmanları şirin dillə dindirmək belə istəmirdilər.

Naxçıvan şəhəri Sisyan mahalının əhəmiyyətli bir keçidi hər saatda əsgər toplanışına əlverişli olduğundan, ermənilər lazımi qədərində Naxçıvanda milli partiyalardan saxlamışdılar. Erməni əsgərləri əsla dinc oturmayıb, müsəlmanları hər saatda müha-

ribəyə çağırırdılar. Belə ki, may ayının 5-də gündüz saat üç radələrində üç nəfər Cəhri kəndinin sakini-müsəlmanlar Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar. Bu xəbər şəhərə çatdıqda camaat bir az da həyəcana başlayıb, narahat olurlar. Ermənilər bu gündən başlayıb dükanları bağlayıb müsəlmanlara məlum olmadığı halda kilsəyə və evlərinə yığışırdılar. Bu tərz ilə may ayının 7-də Tunbul adlı müsəlman kəndini keçdikdə bir müsəlmanı vurub öldürürlər. Bu yerdən müqayisə olunmalıdır ki, ermənilərdə nə qədər tədarük var imiş ki, bu azlıqda yenə müsəlmanlara qələbə xəyalında idilər. Müsəlmanlara gəldikdə qorxudan qol-qanad aça bilməyərək heyrətdə qalmışdılar. May ayının 8-də İrəvan vitse-qubernatoru Baranovski İrəvanda şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmiş şəhər qlavası Cəfərquluxan Naxçıvanski ilə Naxçıvana daxil oldular. Onların gəlməsini eşitdikdə camaat qapıya tökülüb ermənilərin bu işindən şikayətə başlayırlar. Əvvəlinci şikayətləri: "Ermənilər bizə nə etdilər isə keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər"-demək idi. Ayın 9-da Cəhri müsəlmanları qubernatorun hüzuruna gəlib, bu sözləri şikayət etdilər: "Bizim kəndin yolları hər tərəfdən erməni əlindədir. Bu səbəbdən təvəqqe edirik, yolları hökumət mühafizəsinə alasınız". Bu tövr ilə hər tərəfdən müsəlmanlar şikayətə gəlməkdə idilər. NƏ FAYDA Kİ, HAMISI CAVABSIZ QALIB, ŞİKAYƏTÇİLƏRƏ MƏYUSLUQDAN BAŞQA BİR ŞEY

QALMADI. Bu tərəfdən şikayətləri cavabsız qalan müsəlmanları ermənilər cürbəcür söyüşlərlə incidirdilər. Həmin may ayının 9-da naxçıvanlı Əli Hacı Bayramzadə səhrada Əliabad kəndi tərəfindən çeşmə kənarında gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetişdi. Bu xəbər şəhərdə daha böyük dəhşətlərə səbəb oldu. Ayın 11-də Kültəpə kəndinin varlısı erməni öz fədailəri tərəfindən ailəsiylə qətlə yetirildi. Ermənilər bunu da müsəlman camaatına nisbət verdilər. Lakin axırıncı təftişdə yuxarıda adı çəkilmiş partiya tərəfindən cəzalandığı məlum oldu. Varlının adı Xaçaturdur. Həmən günün gecəsi vitse-qubernator Baranovski yol ilə gedən ermənidən çoxlu bomba zəbt etdi. Yenə həmən gecə, yəni may ayının on birində ermənilər bütün şəhəri atəşə tutdular. İki saat yarım müddətində şəhərdə beşaçılan tüfənglərin səsası, alov və tüstüdən savayı bir başqa iş nəzərə gəlməz idi. Müsəlmanlar da tək-tək o atəşlərə qarşı atəş açırdılar. Bərəkət versin ki, həmən gecə müsəlmanlardan bir nəfər də tələf olmadı. Ermənilərdən isə tələfat olmamış deyildi. Bununla belə, hər yerdə gizlədikləri kimi, yenə gizlədilər. Bu gecə müdhiş bir gecə idi. Heç kəs-böyük, kiçik, hətta barmaq boyda balalar da yata bilməzdi. Hərdənbir bir tərəfdən bir güllə açılıb şüşə pəncərələr qabağında ildırım kimi çaxıb beşikdəki balaları da yatmağa qoymurdu. Camaat hərə bir xəyalda idi. Zira, eşikdə dəhşətli külək əsirdi. Heç aram tutmayaraq divarlara güllələr dəyməkdə idi. O

gecəni müsəlmanlar qarışıq xəyallar ilə cəhənnəm guşəsi olan yataqları içində qovrula-qovrula sübh etdilər. Bəli, etdilər! Səhər tezdən, ayın on ikisində, yenə vitse-qubernatora şikayətə gəldilər. Gecənin atışmasını deyib, əncam çəkməsini tələb etdikdə "ƏGƏR ONLAR SİZƏ ATƏŞ AÇIR, SİZ DƏ TUTUB ONLARIN TAPANÇALARINI ALINIZ"-cavabını aldılar! Qubernator bir də "MƏN BİLMƏRƏM"- deyib camaatı qaytardı. O halda gözü qızmış ermənlərdən və özünü itirmiş müsəlmanlardan bir nəfər olmadı söyləsin ki, "CƏNAB QUBERNATOR, BƏS BURAYA NƏ ÜÇÜN TƏŞRİF GƏTİRİBSİNİZ?" Həmən gün şəhər və ətrafı qorxulu olduğundan Naxçıvan camaatı və iranlı fəhlələri-hamı şəhərdə və bazarda idilər. Ona görə iranlı fəhlələr qubernatorun sözünə əməl edərək, ermənilərdən bir sıra açılan şeylər zəbt etməyə başlayıblar. Saat on radələrində bir dəstə erməni fədailəri bazarın başında durub, ayaq tərəfdə olan müsəlmanları güllə-boran etməyə başladılar.

Bu əsnada xəbərsiz olan vitse-qubernator, Cəfərqulu xan- şəhər rəisi, İrəvan qlavası Ağamalov, pristav Mehdi xan Ordubadski cənabları atışma səsinə gəldilər. Yolları erməni bazarından düşdüyünə görə, həmən gün qubernatorun əmrilə açılmış bir neçə erməni dükanlarından qubernator və onun yoldaşları gülləyə basıldılar. Bu əsnada erməni dükanlarına yaxın olan müsəlman dükanlarından da atəş açıldı. Atışma iki saat çəkdi. Bu müharibədə məşhur

erməni tacirləri Adamov şagirdlərilə, Xalatov uşaqları ilə və başqaları qətlə yetirildi. Adamovun dükanına naməlum səbəbdən od düşüb tamam yandı. Bu müharibədə müsəlmandan beş nəfər öldü və bir neçəsi yaralandı. Erməni dükanları əksəriyyətilə, müsəlmanlardan 10 dükan qarət edildi. Müharibə vaxtı polis qulluqçusu naçalnik ANGİL qətlə mane olmayıb "TEZ VUR, OĞLUM! TEZ OL, OĞLUM" deməklə könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "TEZ OLUNUZ! TEZ APARINIZ!" deyib camaatı qızışdırdı. İki saat tamam qətl-qarət uzandıqdan sonra hər tayfa çəkilib öz tərəfinə getdi. Qubernator cənabları bu hadisələri görür və eşidirdi. O günün gecəsi dəhşətli bir gecə olduğundan hamı evlərində oturmuşdu. Saat on iki radələrində erməni tərəfindən şiddətli atışma başlanıb bütün şəhəri gurultu içinə almışdı. Şiddətli atəş ermənilərin ipək zavodundan açılırdı.

Gecə atışmasını cənab qubernator bir saat sonra kəsdirdi. Ermənilər, nəhayət, sakit oldular. Sübh çağı bu xəbər ətrafda çox pis və qorxulu təsir oyatdı. Odur ki, hər tərəfdə qırğın və qətl-qarət başlandı.

Bu gündən başlayıb ermənilər dükanlarını kilsəyə yığışdırıb müsəlmanlara qarşı zülm və acı töhmətlərdən çəkinmədilər. Hər gündə bir hiylə, hər halda bir hoqqa çıxarmaqda idilər. Bu vaxtda, necə ki, məlumdur, şəhərdə çox hökumət qoşunu mövcud olub, camaatı hər saatda təhqir etməkdə, belini, ci-

bini axtarmaqda idilər.

Müxtəsər, Naxçıvan camaatı zülm və əziyyət altında əzilir, nə hökumət, nə filan sidq ilə belə işləri yoluna qoymaq fikrində deyildi. Noyabrın 26-na qədər müsəlmanlar və ermənilər hökumətin siyasəti sayəsində, dəfələrlə, sülh edib bir-birilə əl-ələ vurdular. Axırda yenə bu sülhlər hər iki tərəfə ədavətdən başqa bir səmər vermirdi. Necə ki, hər saatda bu iki tayfanın arasında yeni bir ədavətin ortaya çıxacağı gözlənilirdi. Noyabrın 26-da birdən-birə camaat birbirinə dəyib tələm-tələsik dükanları yığışdırıb evlərinə qaçdılar. Hər kəsdən işin nə yerdə olduğunu soruşduqda əllərini bir-birinə sürtüb heyran-heyran adamın üzünə baxırdılar. Camaat arasında müxtəlif xəbərlər danışıldığı kimi, Çeşmə-Basardan da bu xəbər yetişdi: Bu gün kazaklar sülh və asayişi təmin etmək üçün Çeşmə-Basar kəndinə gedərkən Hacı Nəsir Hacı Nağı oğlunun evini qarətə başlamışlar, bu vaxt qabağa durub mane olmağa çalışan Hacının bir zavallı oğlunu öldürmüşlər. Müsibətə düçar olmuş Hacı oğlunu qana bulaşmış görərkən çaşıb bir güllə kazaklara atmış, elə buna görə də onun ailəsi biədəblər tərəfindən qətl edilmişdir.

Bu xəbər Naxçıvan camaatını nəhayət dərəcədə pərişan etmişdir. Zira, bu işlərin ümdə baniləri və başçıları polkovnik Krılov və naçalnik Angillər idi. Noyabrın 26-sı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmən gecəni Naxçıvanda müsibət gecəsi, od-

lu-alovlu gecə adlandırmışlar. Həqiqətən də o gecə atəşli, ürəkdağlayan, yanğılı bir gecə idi. Həmən gecə saat yeddi radələrində böyük və dəhşətli sədalar eşidilirdi. Camaat evlərindən çıxıb bazara girmək istəsələr də, kazaklar hər tərəfdən atəş açıb mane olurdular.

Xülasə, güllə səsi iki saat davam edib camaatı heyrət içində qoymuşdu. İki saatdan sonra güllə səsi kəsib, bir az sakitlik oldu. Bir azdan şəhəri tüstü bürüyüb bazar tərəfdən qəmli bir işıq şəhəri ara-sıra işıqlandırdı.

O vəziyyətdə bazar yanar dağ və vulkanlara bənzəyirdi. Bir saatdan sonra məlum oldu ki, HƏRİF KAZAKLAR VƏ ERMƏNİLƏR ƏLBİR OLUB MÜSƏLMAN BAZARINI TAMAM QARƏT EDƏNDƏN SONRA OD VURMUŞLAR. Bu halda şəhərin hər guşəsindən nalə ucalıb, bir saatın içində küçə və meydanlar camaatla dolmuşdu.

Camaatla biaramlıq nəhayət dərəcədə idi. Bazarın yanmaq gurultusu, camaatın ah-naləsi, xüsusən tüfənglərin şaqqıltısı, kazakların sədaları şəhərə böyük bir vəlvələ salmışdı.

Camaatın üç yüzü birdən bazara tökülüb yüz il zəhmətlə qazandıqları dövləti yanıb kül olmaqda gördülər. Ədəbsiz kazaklar bazarı hər tərəfdən yandırıb yolları da kəsmişdilər. Tamam iki saat yanğından sonra Angil, Krılov bazara təşrif gətirib kazaklara “camaatı qovunuz” əmrini verib söhbətə başladılar. Bir neçə dəqiqədən sonra kazaklara atəş əmri

verməklə fəqir Məşədi Həsən Məmmədqulu bəy oğlunu vurdular. Camaat vəziyyəti düşünə-düşünə dağılıb evlərinə getdilər. Bu vaxtda dəmiryol vağzalında olan insaniyyətpərvər gürcü qardaşlardan müsəlmanların köməyinə gəldilərsə də, artıq iş-işdən keçmişdi (Allah onlardan razı olsun). Sübhə kimi bazar tamam yanıb kül oldu.

Camaat gündüz bazara gedib qızarmış torpaqdan başqa bir şey görmədilər. Üç gün gecə bazar-dükanın tüstüsü çıxmaqda idi. Təxminən 85 dükan, 75 anbar və boş dükan yandırıldı. Üç gün, noyabrın 27-dən 30-na qədər bazarda əsla yeməli bir şey tapılmır. Camaat son dərəcə ehtiyac içində keçinirdi. Çox evlərdə aclığın insana əziyyət verən şiddətindən yata bilmirdilər. Noyabrın 29-cu gecəsi saat yeddi radələrində uzaqdan qorxulu bir gurultu gəldi. Camaatda cinayət yerinə getməyə əsla cürət olmayıb, bir saatdan sonra bu xəbərlər ətrafa yayıldı. Şəhərin ikinci hissəsində kazaklara yaxın olan bir müsəlman evini onlar atəşə tutub qarət etmişlər. Yarım saat sonra yenə bir atəş səsi eşidilib kazaklar tərəfindən icra olunduğu meydana çıxdı.

Ayın otuzunda Cəhri kəndinin ermənilər və kazaklar tərəfindən yandırılması camaatı çox pərişan etdi. Bu gün İrəvan general-qubernatoru cənab Paskeviç şəhərə təşrif gətirməklə, camaat yığışıb dərdlərini deyib çarə istədilər. Qubernator isə "eyb etməz, mən işə yaxşı baxaram"-deməklə camaatı da-

ğıtdı. Müxtəsər iki gün cənab qubernator keyflə məşğul olub, Cəhri kəndi tamam yanıb qurtarandan sonra qubernator Cəhriyə yollandı. Dekabrın ikisində qubernator gedən vaxt camaat yığılıb şəhərin ikinci hissəsində kazaklar tərəfindən od vurulduğunu deyib kazakların götürülməsini tələb etdilərsə də, "yaxşı, demişik "mero" (tədbir) götürsünlər, gedib Cəhriyə, qayıdıb işlərə əncam verəcəyəm"-cavabını verib aradan çıxdı.

Müsəlmanları bu hala qoyan hökumətin belə "meroları" (tədbirləri) deyilmi? Müsəlmanlar qayıdıb kazaklardan ərizə yazıb, qubernator qayıdanda təqdim etmək həvəsində olduqları halda, qubernator gecə saat on birdə qayıdıb, müsəlmanların xəbəri olmasın deyə, ahəstə, vaqon ilə İrəvana yollanmışdı. Budur bürokrat idarəsinin müsəlmanlar üzünə açdıqları qəmli hadisə pərdələri.

Atalar demiş kimi, məzlum ən zalımdır.

Yuxarıda deyilənlərə bunu da əlavə edim ki, əvvəlinci hadisələrdə əsas müsəlmanlara dəymişdi.

Mömınə xatın türbəsi

Yusif Küseyir oğlu türbəsi

POEZİYA

Hüseyn Nadim Naxçıvani

MİLLƏTƏ

Şeir ermənilərin 1918-1920-ci illərdə Naxçıvana hücumu zamanı yazılıb.

Yox bircə kəs xilas edə bu nardən bizi,
İmdad edən yoxdur bu biçarə millətə!

Bizlərdən kənar eyləsin bu bəlaləri,
Olsun munis zəmanədə dilparə millətə!

Versin səsimizə səsini, eyləsin imdad,
Bir çarə eyləsin bu günüqarə millətə!

Gəlsin cahana bir adil şah hifz saridən,
Lütf eyləsin bu haldə avarə millətə!

Yetsin bu gündə əzilmiş millət harayına,
Hər səmtdən yetib yenə min yarə millətə!

Mən Nadiməm, zəmanədə millət cünuniyəm,
Ağlar gözüm həmişə bu biçarə millətə!

Fəqir Ordubadi

KALBALI XAN NAXÇIVANİYƏ

İlahi, günbəgün artsın cəlali-Kalbalı xan,
Bahari-şövkətinə əsməsin səmumi-xəzan,
Bu növ adili-bazil nə bu zəmanə görüb,
Nə belə sahibi-mürvət fələk veribdi nişan.
Dəmi-məsafidə yoxdur o həddi-xəsmlərin,
Ayaq rəzminə qoysun, özünü qılsın əyan.
Yetəndə düşmənimin guşinə mübarək adı,
Olullar çümlələri bərki-bidtək lərzan.
Zibəs vücudi salıb Naxçıvanə sayeyi-lütf,
Gərək o şəhrə deyilsin cahanda Nəqşi-cahan.
Çox etmə ahu təzərrə, usan bir, ey dilxun,
Gəlim tək bu biyabanda qalma çox heyran.
İtirmə zövqi-meyi-vəhdəti bu aləmdə,
Az et bu tahyeyi-heyrətdə ahu zarü fəgan.
Ədayi-şükri-xuda qıl ki, nuri-tələti-xan,
Olundu Turi-cəlalətdən imdi, billah, əyan.
Ki, yəni qoydu qədəm Ordubadi-təyyibəyə,
Bu şəhri-təyyibinə qıldı rəşki-bagı-cinan.
Gedib hüzurinə cəbhin gubari-payinə qoy,
Sirişki-çeşmin ilə eylə məqdəmin tufan.
Bu növ ərz elə ki, çakəri-dərün, gərdun,
Bu qədr şərri rəva görmə, etdi bagrımı qan.
Soruş bu xəlqdən , aya, nedüb atamla əmim,
Ki, həbsdə qalalar eyd, hər məhi-rəmazan.

Xudayi-ləmyəzəlü layəzəl ruzi-əzəl,
Bu şəhrin əhlinə bir zərrə vermiyib iman.
O qədr vardı bu şəhr içrə pür füsun iblis,
Görəndə onları şeytan qaçar, olar pünhan.
Salıblar həbsə atamı, əmumi bitəqsir,
Cənabi-Kəmsərü knyaz, hər dü bəxti-cavan.
Zibəs ki, hiylə qılıb onlara bu iblislər,
Görüm xuda eləsin evlərini küll viran.
Yetiş bu ərizə, ey xan, yetişdi zülm göyə,
Qılıbdı bəhri-gəmim həddən genə tüğyan.
Ölümdən eyləmirik hic dəm hərasilə xof,
Gəlibdi şənimizə küllü-mən əleyha fan.
Bə leyk yeydür ölüm bu sözü eşitməkdən,
Cahanda cümlə əşaidən bu addı yaman.
Təvəqqeim budu səndən , əya, süpehri-kərəm,
Zəbani-hökm açıb bircə edəsən fərman.
Ki, bəlkə rəhmə gələ knyazi-başövkət,
Olarmı qoymuya, canə yetirdi bu zindan.
Fəqir ta qıla canun dərun gədalərinə
Müdam zövqü səfa ilə hər zaman qurban.

Məmməd Araz

NAXÇIVANIM MƏNİM

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır
Doğma Şahbuzum da, Naxçıvanım da.

Bir bağban əli var təbiətində -
Dağda çiçəyi bol,bağda barı bol.
O yaxın dostudur təbiətin də,
Yayda günəşi bol,qışda qarı bol.

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.

Seyr elə Arazı bir yaz səhəri,
Bir tarix dil açır onun səsində.
Bu yerin min dərdi, min də kədəri
Yazılmış Möminə məqbərəsində.

Yaxşı bax, hər qara qayanın,dağın
Dibi Zərdüştlərin ocaq yeridir.
O gündən üstündə ana torpagın
Qalan min yağının ləpirləridir.

Biz nöqtə qoyuruq acıya, dərdə,
Ömrü ulduzlardan alırıq indi.
Babamız qəm əkib, qəm biçən yerdə
Çiçəkli bağ-bağat salırıq indi.

İslam Səfərli

"NAXÇIVAN YADİGARI"

I

Bir şeir tablosunu yaradım deyə,
Düzdə gülə baxdım, döşdə laləyə.
Durna göyü gəzdi, qartal zirvəni,
Duman göy düzlərin odlu yelkəni.
Dagdan uçqun qopdu, dindi dərələr,
Hürküb, yuxusundan oyandı səhər.
Kəklik daşa səkdi, qırqovul kola.
Dindi qoşalüləm, yüyürdü tula…
Yarğandan quş qalxdı, çaylardan sona,
Çollərin qurd-quşu yatdı yovşana.
Ovçu hənirtisi, çöl sükunəti
Yaratdı qəlbimdə bu şeiriyyəti.
Çatıb buz bulaga, ayaq saxladım.
Könül dəftərimi mən varaqladım.
Qayalar dil açıb dedi: yazma gəl,
Bu sözlər heç kəsin gəlməz karına:-
Bəhruz hüsnümüzü səndən də əvvəl
Çəkmişdi "Naxçıvan yadigarı"na.

II

"Pətəkli quzeydən"aşagı düşdüm,
Yosunlu daşlardan yerə sürüşdüm.
"Sübhün açılması", bir "Meşə yolu",
Dağdağan ağacı,qarağat kolu,

Körpə qələmələr,salxım söyüdlər
Başımın üstündə əsdi sərasər...
Durub seyr elədim mən bir az çayı,
Ax, ey "Araz" çayı, ey "Araz" çayı!
O üzü, bu üzü yastı təpəlim,
Ey almaz dalğalım, gümüş ləpəlim,
Ey iki qardaşın dərdi, qubarı,
Sizin hüsnünüzü yaradım barı...
Bütün misralarda güllər öpüşsün.
Gördüyüm lövhələr şeirimə düşsün.
Səs gəldi: şairim, inadı burax,
Əbəs mizrab vurma könül tarına;
Bəhruz hüsnümüzü səndən də qabaq,
Çəkmişdir "Naxçıvan yadigarı"na.

III

Keçib düz "Atabəy məqbərəsi"ndən
"Əliabad yolu"yla addımladım mən
"Edilaga gölü"nə vuruldum bu an,
"Ağrı dağ" boylandı dağlar dalından.
"Təndir çeşməsi"nin suyu"gəl"-dedi,
"Mənəm ən içməli, ən gözəl"-dedi.
"Qoyun sürüləri" keçdi önümdən
"Axşam qürubu"nu seyr elədim mən.
Bir "Toy" şənliyinə düşdü güzarım.
Dedim, qoy məclisə salam aparım.
Bu gün sizdən yazam mən gərək -dedim.
Toyun ağbirçəyi çıxdı qarşıma,
Xınalı əlini çəkdi başıma:

-Yaxşı ki, gəzirsən Vətən mülkünü,
Oglum, əhsən sənin düz ilqarına.
Ancaq Bəhruz elin toy-düyününü
Çəkmişdir "Naxçıvan yadigarı"na.

IV

Fikirlər içində ayağa qalxdım,
Baxdım, hər zirvəyə, min kərə baxdım.
Dindi qoşa vələs başımın üstə,

Göydən durna keçdi yenə bir dəstə...
Dedim:-Araz üstdən uçan durnalar,
Məndən qardaşıma salamlar apar!
Fikrimi cəlb etdi "Bulud parçası" ,-
Onu da yaratmış Bəhruz fırçası.
Bu böyük rəssamın məzarına mən
Bir əklil apardım dağ güllərindən
Sənətin ecazkar ülviyyətinə
Bir daha, bir daha vuruldum yenə.
Bu vaxt ürəyimdən qopdu bir nida:
-Şair, böyük sənət qalır dünyada!
Hər yarpaq başına tutduqca çətir,
Vurul Vurğun kimi öz diyarına,
Bəhruz Kəngərlitək lövhələr gətir,
Sən də öz "Naxçıvan yadigarına".

Adil Babayev

TARIMIN SARI SİMİ

Sən mənim tarımda bir sarı simsən,
Mənim bu günümsən, qədimliyimsən.
Başı Əlincəli, qoynu Arazlı,
Günəş təbəssümlü, bulaq avazlı
Pozulmaz, əbədi bir dastanımsan,
Sən anam, vətənim, Naxçıvanımsan.

Adına nə qədər nəğmə yazılıb,
Lakin yazılanlar yenə az olub.
Hər ulu dağında bir hünər izi,
Sən mərdlik meydanı, sərvət sərgisi,
Ulduzlu göylərdə kəhkəşanımsan,
Sən anam, vətənim, Naxçıvanımsan.

İgid vüqarlısan, ana dözümlü,
Ceyranlı, cüyürlü, duzlu, üzümlü.
Güneyli, quzeyli yaylaqların var.
Min dərdin dərmanı bulaqların var.
Sən şəfam, məlhəmim, can dərmanımsan,
Sən anam, vətənim, Naxçıvanımsan.

Sinəndə nə qədər qılınc yeri var!
Necə yad atının ləpirləri var.
İllər sınağından mətin keçmisən,
Alovla, tufanla pəncələşmisən,
Dar gündə əyilməz bir qalxanımsan,
Sən anam, vətənim, Naxçıvanımsan.

Hər günün bir ümid, bir axtarışdır,
Görüşdük, könlümün sevinci daşdı.
İşıqlar bürüdü sanki, şeirimi.
Mən sənə bağlıyam ürəyim kimi.
Mənim halal südüm, qızıl qanımsan,
Sən anam, vətənim, Naxçıvanımsan.

Hüseyn Razi

AZƏRBAYCAN GÖZƏLİYƏM

Naxçıvanam-Azərbaycan gözəliyəm,
Sözün, eşqin, düz ilqarın əzəliyəm.
Mən bir eləm,
Nurlu şəlaləyə dönən,
İşıqların gürşadında şölələnən
Araz üstə Çənlibeləm...
Odum,suyum məlhəm olmuş
İgidlərin yarasına.
Od çaxarlı,sel axarlı
Havaların sırasına
Mən "Cəngi"ni gətirmişəm.

Zirvələrim ağ çalmalı,
Çıçəklərim şeh sırğalı,
Yamaclarım zümrüd xalı.
Çaylarımın şaqqıltısı
Yüz Koroğlu nərəsindən,
Yüz Qıratın nal səsindən,
Misri qılınc zərbəsindən
qopan səsdir.
Düşmənimə kinim oxdur,
Dostlarıma məhəbbətim müqəddəsdir,
Sədaqətim müqəddəsdir.
Ləl-çavahir töhfəsiyəm
Bizim Odlar diyarına.

Qarbağlar türbəsi

Gülüstan türbəsi

Xanəgah türbəsi

İmamzadə kompleksi

Aza körpüsü

Nuh türbəsi

Memarlığın gülzarına,
Əçəminin zər naxışlı,

Ulduzlardan yaraşıqlı
Yüz rəngini gətirmişəm.

Heyran xanım övladıma
Şirin dillə.
Yüz nisgillə layla çalıb.
Şərqın neçə sənətkarı
Qucağımda vəcdə gəlib,ilham alıb.
Hər daşımdan od ürəkli
Babaların səsi gəlir.
Bir nəğməyəm,hər xalımdan
Neçə nəğmə bəstələnir.
Təmiz eşqin alovunda yana-yana,
Şeir adlı gülüstana
Mən Çavidin rübabıyla
Romantika çələngini gətirmişəm.

Torpağıma Xəzər boyda tər tökülüb,
Bəhruzumun fırçasından
Ulduz-ulduz zər tökülüb.
Əcdadımın yüz əhdini
Nərmənazik dilim kimi,
Vüqarım,sevgilim kimi
Öz bağrımda yaşatmışam.
Ürəyimi telli sazla,
Xoş avazla boşaltmışam.
Mizrabımı telə çəkib,

Xoş səsləri zilə çəkib,
Məmməd Səid qələmiylə
Nəsrə şeir ahəngini gətirmişəm.
İllər boyu hicran odu,
Gözlərdəki qəm buludu
Parçalanıb qılıncımla.
Yüz tilsimi,yüz əfsunu

Nəfəsimlə əritmişəm damla-damla,
Mirzə Cəlil süd əmmişdir
döşlərimdən
O ustadın şəxsində mən,
Sözün çıdır meydanına
Satiranın pələngini gətirmişəm,
Sənətkarın nəhəngini gətirmişəm.

İndi bahar səmasıtək
İşıqlıdır ömrüm,günüm,
Dan yerinin şöləsidir təbəssümüm.
Saçım ağdır, necə əsrin övladıyam,
Fəqət yeni zəmanənin Fərhadıyam,
Öz eşqimlə, hünərimlə
Yanar dağam,
Araz üstə məşəl kimi
Daha parlaq olacağam.
Bu gün ellər məclisinə
Arzuların,əməllərin
Qəşəngini gətirmişəm,
Qəşəngindən qəşəngini gətirmişəm.

Əliyar Yusifli

MUXTAR RESPUBLİKAM

Baxma xəritədə bu qədim diyar
Kiçik bir nöqtəylə qeyd edilibdir.
Bu yurdun qolunda aslan gücü var,
Burdan cahangirlər peşman gedibdir.

Durur minarələr,vüqarla durur,
Köksündən gülləylə vursa da yağı.
Böyük Əcəmidən öyrənib onlar
Düşmən qabağında mətin durmagı.

Bilinmir bu yerdə kəkliyin sanı,
Düşünmə,hənadır dırnaqlarında,
Onlar el uğrunda tökülən qanı
Yadigar saxlayır ayaqlarında.

İtirib döyüşdə qardaş-qardaşı,
Muzeydə saxlanan qanlı beşikdir.
Burdakı qayanın,burdakı daşın
Sinəsi güllədən deşik-deşikdir.

Qəm yerə quylanıb şiş qayasında,
O gündən bu günə vüqar qalıbdır
Odlar diyarının bu parçasında
Şadlıq qranitdən qoparılıbdır.

Bu yerlər qıy vuran qartal yeridir,
Dostlar qonaq gəlsin qoy dəstə-dəstə.
Bu qədim Naxçıvan gül buketidir,
Məğrur bir vətənin qolları üstə.

MƏNİM NAXÇIVANIM

Ey günəşlə öpüşən,
Mənim doğma Vətənim.
Odu sönməz, atəşli
Ürəyimsən sən mənim.
Sənin geniş qoynunda
Səadəti tapmışam,
Sədaqəti,vəfanı
Məhəbbəti tapmışam.
Hər əməlim, hər sözüm
İlhamım da sənindir,
"Sən anasan, mən uşaq"
Bu canım da sənindir.
Bilirəm ki, taladı
Səni şahlar, sultanlar
Qılınc çəkdi üstünə
Mənəm deyən xaqanlar,
Lakin geniş düzlərin
Od içində yansa da,
Əzəmətli dağ kimi
Əyilmədin sən yada.
Sən igidlər yurdusan,
Ey sevimli Vətənim,
Gözlərimin işığı,
Qüdrətimsən sən mənim.

Neçə sənət aşiqi
Bu torpaqda ucalmış.
Mərd insanlar söyləmiş
Zəkasına min alqış.
Olubdur qoca Şərqin
Əzəl gündən zinəti,-
Möminənin türbəsi,
Əcəminin sənəti.
Zər cilidli kitabsan,
Qoynun sirlə doludur.
Sənin şanlı tarixin
Zəfərlərlə doludur.

Amma dönüb zülmətə
Bir zamanlar səhərin,
Həsrət qalıb günəşə
Nalə çəkib ellərin.
Min əzaba qatlaşıb
Bir səadət axtardın.
Tufanların içində
Sən ədalət axtardın.
Bir nurlu may günündə
Qızıl günəş ucaldı.
Şöləsindən yurdumuz
Qüdrət aldı, güc aldı.
Neçə susuz çöllərə
Çatdı bahar mücdəsi.
Dodaqlarda səsləndi
Beynəlmiləl nəğməsi.

Aşıb-daşdı sərvətin
Sahilində Arazın.
Ulduz yandı döşündə
Neçə qəhrəman qızın.
Sən özün bir baharsan,
Çiçəklidir yolların,
Övladının boynuna
Dolanıbdır qolların.
Sən elə bir diyarsan
Məhəbbətlə doludur
Sənin odlu ürəyin.
Sən elə bir torpaqsan
Dünya görmüş qoca tək
Müqəddəsdir diləyin.
Sən elə bir diyarsan
Qəhrəman əcdadının
Əməlləri səndədir.
Neçə-neçə körpənin
Gələcəyi, işıqlı
Səhərləri səndədir.
Ana torpaq, qoy deyim
Mənim gözəl növrağım,
Baharım da səndədir,
Bu ağ saçlı dağların
Zirvəsi tək yenilməz
Vüqarım da səndədir!

Kəmalə Ağayeva

"SƏNDƏ TARİXLƏRİN ÇOX NİŞANI VAR…"

Mənim Naxçıvanım, doğma diyarım.
Sanki dünya ilə bir yaranıbdır.
O, mənim qönçəli,güllü baharım,
Dağların mehiylə sığallanıbdır.

Qədim abidələr sərgisidir o,
Ölməz Əcəmidən nişanə qalıb,
Uca tanrımızın sevgisidir o,
Əshabi-Kəhfində əfsanə qalıb.

Əlincə dağımız qeyrət qalası,
Yenə qayaların keşiyindədir.
"Möminə Xatın" da ismət qalası,
Ötən əsrləri bizə nəql edir.

Solmaz yaddaşıdır daş kitabələr,
Onların yurduma vəfası vardır.
Gilan xərabələr, lal sərdabələr,
Xərabə olsa da, bir yadigardır.

Gəmiqayası var-Nuh diyarıdır,
Yaşı ululardan uludur onun.
Neçə xan diyarı, şah diyarıdır,
Qəlbi xatirəylə doludur onun.

Burda Qızqala var, Oğlanqala var,
Söz açır aşiqlər hekayətindən.
Hilalı gizlənsə bir zülmət olar,
Dağlar da usanmaz şikayətindən.

Haçadağ dağlardan ucamı görən?
Baxanda hər yerdən boyu görünür.
Batabat dünyadan qocamı görən?
Hər zaman güllərin toyu görünür.

Ədilağa gölü ulduz aynası,
Qızlar bulağının təranəsi var.
Hanı Arpaçayın gözəl sonası?
Bu çayın Xançoban pərvanəsi var.

Ellərin Heyranı unudulmayır,
Sevgilər yaşayır qəzəllərində.
"İbn-Küseyr" də bir nəğmə yayır,
Sənət ellərində, söz ellərində.

Hər daşın bir dastan olası yurdum,
Ötən əsrlərin zər xonçasıdır.
Ömürcə könlümə dolası yurdum,
Vətən torpağının bir parçasıdır.

NAXÇIVAN

Araz üstdə Naxçıvan
Mehriban, qədim şəhər.
Günəş qalxıb yataqdan
Səni öpər hər səhər.
Yaşıllıqlar içində
Hər qarışın gülüstan,
Gur işıqlar içində
Bizim abad Naxçıvan.

Mirzə Cəlil bu yerdə
Keçirdib gənçliyini,
Görüb qara günləri,
Unutdu dinçliyini.
Rüsvay etdi cahanda
Neçə Xudayar bəyi,
Öpdü açıq alnından
Salvartının küləyi.
Onun səsi bu yerdən
Bütün Şərqə yayıldı,
Acı qəhqəhəsindən
Neçə insan ayıldı.
Neçə gözəl mənzərə
Sirdaşıdı Bəhruzun,
O da oldu şöhrəti

Bu qədim yurdumuzun.
Gurladıqca rübabı
Bir zaman pərdə-pərdə,
Xuramanı, Sənanı
Cavid tapdı bu yerdə.

Araz üstdə Naxçıvan,
Mehriban, qədim diyar.
Sənin ana qoynunda
Hamı azad, bəxtiyar.
Küçələrin ayna tək,
Evlər durna qatarı,
Sanki qanadlanacaq
Şəhər üfüqə sarı.
"Badamlı"nın şöhrəti
Yayılır diyar-diyar,
Ordubad meyvəsində
Şəfəqlərin rəngi var.
Billur kimi sal duzun
Dad verir süfrəmizə,
Bahar çələng qaldırır
Dünənki "Böyük düzə".
Araz üstdə Naxçıvan,
Mehriban, qədim diyar,
Vəsf etməklə bitərmi,
Səndə nələr, nələr var!

NAXÇIVAN

Mən səni vəsf edim bir canan kimi,
Sarılım boynuna mehriban kimi,
Göyündə ulduzlar sayrışan kimi,
Ey könül mülkünün varı Naxçıvan,
Ellərin sevimli yarı Naxçıvan.

Səndə tarixlərin çox nişanı var,
Hər daşın qəlbində ox nişanı var,
İndi nə xanı var, nə sultanı var,
Silib gül üzündən xarı Naxçıvan,
Ellərin sevimli yarı Naxçıvan.

Qoynuna gül üzlü şux nigar gəlir,
Mücdə ver bülbülə, ilk bahar gəlir,
Qızlar bulağına nazlı yar gəlir,
Ey könül mülkünün varı Naxçıvan,
Ellərin sevimli yarı Naxçıvan.

NAXÇIVAN

Sənin tarixini oxuduqca mən
Gördüm ki, sənətin, sənətkarın var.
Bilir ki, tarixlər yaradan Vətən,
Sənin öz tarixin, öz vüqarın var.

Sən boyun əymədin əzəldən yada,
Yadlara: "Nəslimi yada sal!-dedin.
Döşündən süd əmən hər bir övlada:
-Çalış əməyinlə sən ucal!-dedin.

Sərvət yatağıdır bizim bu dağlar,
Kimə bəlli deyil Naxçıvan duzu.
Qucagı almalı, üzümlü baglar
Şöhrətə çatdırıb bu gün Şahbuzu.

Qaynar bulaqların sərin suyundan
İçdikcə doymayır yenə içənlər.
Qalır meşələrin hüsnünə heyran
Yayda Batabatdan gəlib keçənlər.

Bu gün öz donunu, öz paltarını
Geyib al günəşdən Şərurun düzü.
Kim sevməz bu elin şən qızlarını,
Əməklə onların ağ olmuş üzü.

Culfanın sayrışan gur işıqları
Araz sularında əks olunur bax.
Binalar ucalır, qalxır yuxarı,
Sanki Günəş ilə qoşa duracaq.

Bizim Ordubad da dəyişmiş donun,
Bürüyüb hər yanı onun şən səsi.
Ellərə bir töhfə olubdur onun
Qovun mürəbbəsi, gül mürəbbəsi.

De, necə gəlməsin şair ilhama,
Zəfər nəğmələri göyə yüksəlir.
Hər yeni xoş ilə, əziz bayrama
Doğma Naxçıvan da üzü ağ gəlir.

NƏQŞİ-CAHAN

Dağlarını bulud quçan,
Daşlarından kəklik uçan,
Tarlaları ətir saçan,
Sinəsindən Arpaçayı,
Ətəyindən Araz keçən
Hansı məkandır?
O Naxçıvandır-
Azərbaycandır.

Yaylagı Salvartı dağı,
"Badamlı"sı, Zor bulağı,
Ordubadın meyvə bağı,
Şanlı igidlər vətəni,
Heyran edən çox qonağı
Hansı məkandır?
O Naxçıvandır.
Nəqşi-cahandır-
Azərbaycandır.

Yer altında sərvəti var,
Hər ölkədə hörməti var!
Yenilməyən dövləti var,
Qoca Şərqin qapısında
Qüdrəti var, şöhrəti var.
Hansı məkandır?
O Naxçıvandır.
Nəqşi-cahandır-
Azərbaycandır.

Xan sarayı

Açıq Səma Altında Muzey

"Əshabi-Kəhf ziyarətgahı" dini-mədəni abidə kompleksi

Gəmiqaya

Gəmiqaya rəsmləri

Əlinjə qalası

Zeynal Vəfa

ƏLİNCƏ

Qartal olub qaya-qaya səkərəm,
Ürəyimi torpağına əkərəm,
Özün boyda dərdin olsa çəkərəm,
Bükülməyən biləyimsən,dizimsən,
Tarixlərdə yarpaqlayan izimsən,
Xoşbəxtik ki,özgənin yox,bizimsən,
Ay Əlincəm, ay Əlincəm, Əlincəm...

Sən qorudun yağılardan elimi,
Çəmənlərin şəhidlərin telimi?
Küləklərin qılıncların yelimi?
Alnındakı de şehmidir,tərmidir?
Qayaların heykəlləşmiş ərmidir,
Hər bir daşın açılmamış mərmidir,
Ay Əlincəm,ay Əlincəm,Əlincəm.

Hünər ölər qılınc qında yatanda,
Sinən üstə yadlar tonqal çatanda,
Azadlığı qəm selində batanda,
Daşlar oldu "qəzəbli"yin, "dərdli"yin,
Gəlmələrə od püskürdü sərtliyin,
Ay Əlincəm,ay Əlincəm, Əlincəm.

Sən əbədi keşikçisən arana,
Polad oxlar sancılıb hər parana,
Tənzif olub qoy sarınım yarana,
Yadlar gəlsə dumanında azalar,
Qudrətini ürək-ürək yazalar,
Şöhrətimi sinən üstə qazalar
Ay Əlincəm,ay Əlincəm, Əlincəm.

Elmira Qasımova

MƏNİM RESPUBLİKAM

Mənim respublikam, ana vətənim,
Daşın, torpağın da əzizdir mənə.
Övlad anasına söz qoşsa əgər,
Yorulmaz vəsfindən yüz il də yenə.

Muxtar respublikam,vüqarım mənim,
Sal duzun, "Badamlı"n sonsuz sərvətin.
İgid, alnıaçıq övladlarınla,
Yayılıb dünyaya sənin şöhrətin.

Burda bulaq var ki, dərdlər əlacı,
Burada yaylaqlar loğmandır, loğman.
Sənin dağlarından gül iyləyən kəs,
O xoş rayihəni unutmaz bir an.

Burada qartallar qıy vursa əgər,
Şimşəklər oynayar, qayalar uçar.
Koroğlu dövründən qalan dağları,
Günəş ilkin öpər, şəfəqlər saçar.

Nizami dövrüylə gəlib üz-üzə,
Qalalar önündə qala olarsan.
Belə od ürəkli ana torpağa,
Sən də od ürəkli bala olarsan.

Beş addım o yanda qaçaq Nəbinin,
Anamız Həcərin izi qalıbdır.
Baş əy ehtiramla ulu dağlara,
Onda Dədə Qorqud sözü qalıbdır.

Əlincə qalası əzəmətiylə,
Ölməz Nəiminin vüqarıdır bax.
Deyirəm zamanın hökmünə əhsən,
Min illik tarixdir bir qarış torpaq.

Mənim respublikam, sənin bu günün,
Sərvətli, nemətli bir aləm olub.
Qurub yaradırsan səadət üçün,
Sevinc də, şadlıq da səndə cəm olub.

Coşursan sevinclə bayram içində,
Yolların yenə də gül-çiçək olsun.
Mən sənin övladın, sən mənim anam,
Ay ana, bayramın mübarək olsun!

NAXÇIVANA GETMİŞDİM...

Naxçıvana getmişdim,
Otuz il bundan əvvəl
Getdiyim Naxçıvana.
Şairlər məclisində
İlk şeirim, nəğməm ilə
Ötdüyüm Naxçıvana.

Nə qədər göz gəzdirdim,
Uçuq-sökük evlərin
Heç birini görmədim.
Şəhər elə genişdi,
Ürəyimdə sevincin
Sahilini görmədim.

Baxdım, heyrətlə baxdım
Uca-uca evlərin
Sırasına,rənginə,
Üzlərdən fərəh yağan,
Günəşli eyvanların
Qızılı çələnginə.

İnstitut binası,
Neçə kafe,restoran,
Nə bilim daha nələr!
Yaraşıqlı bağların

Boynunu qucaqlayan
Geniş yollar,küçələr

Naxçıvana getmişdim,
Otuz il bundan əvvəl
Getdiyim Naxçıvana.
Onda kiçik görünən,
İndi qoynunda azıb,
İtdiyim Naxçıvana.

Validə Hüseynova

BURDA SƏN QONAQSAN, MƏN EV YİYƏSİ

Burda sən qonaqsan, mən ev yiyəsi,
Qal,gəz bu torpağı, yaxından tanı.
Gələr qulağına Arazın səsi
Səndən soruşsalar Azərbaycanı.

Gəzək Naxçıvanı,qalxaq Şahbuza,
Özgə bir aləmdir dağlı həyatı.
Gör necə gözəldir, ay ucalanda
Çoban tütəyində "Çobanbayatı".

Burda yamaclara yaxşı nəzər sal,-
Sanki qayaları Fərhad oyubdur.
Al-əlvan rəngləri itməsin deyə
Təbiət dağları çılpaq qoyubdur.

Bəlkə də Bəhruzun fırçası düşüb
Torpağı boyayıb əlvan xalı tək.
Qol-qola tutubdur uca qayalar
Elə bil indicə yallı gedəcək.

Buraya Əcəmi zinət vurubdur,
Burda tarix olmuş neçə türbə var.
Həmişə torpağın qədrini bilib,
Zərə zər naxışı vurub babalar!

Burda sən qonaqsan, mən ev yiyəsi.
Qal, gəz bu torpağı, yaxından tanı.
Bizim bu eldən də söhbət açarsan,
Səndən soruşsalar Azərbaycanı.

Emil Mehdiyev

ORDUBADDADIR

Qəlbimin ilk sözü,ilk pıçıltısı,
Arzusu, diləyi Ordubaddadır.
Heyvanın şirini,narın dadlısı,
Armudun göyçəyi Ordubaddadır.

Gəlir xatirimə nələr,eh nələr,
Kagıza düzdüyüm ilk qafiyələr.
Yuxudan oyadan məni hər səhər
Quşların cəh-cəhi Ordubaddadır.

Ələngəz dağının zirvəsi qarlı,
Vənəndin, Əylisin bağları barlı,
Qovaq əzəmətli, çinar vüqarlı,
Yazın hər çiçəyi Ordubaddadir.

Laləli dolaylar, güllü gədiklər,
Nanəli dərələr, reyhanlı diklər,
Ayağı xınalı fərə kəkliklər,
Dağların bəzəyi Ordubaddadır.

Səidin qəzəli,Hüsnünün səsi,
Dübəndi çayının xoş təranəsi,
Ətri can dərmanı gül mürəbbəsi,
Qızların ipəyi Ordubaddadır.

Arazın suları axır durmadan,
Buludlar saxlayır üstündə karvan,
Gözəl təbiətə min naxış vuran
İnsanın əməyi Ordubaddadır.

Bu yer bir zinətdir Azərbaycana,
Bu yerdə can deyir insan insana,
Emilin xəyalı uçsa hayana,
Hər zaman ürəyi Ordubaddadır.

Kərim Faiq

CAVANLAŞAN DİYARIM

Bu diyarın faciəli keçmişini neçə
danım?
Azmı qana qəltan olmuş bağım,bağçam,
Gülüstanım?
Kirpiyiylə od götürən babaların
hünərindən
Qalıb dilsiz qalaların daşlarında
min dastanım.
Vaxt olub ki,bu yerlərdə daş qalmayıb
daş üstündə,
Qılınc qına qoymayıbdır ancaq heç bir
qəhrəmanım.
Yağılara əyilməyib soyulsa da diri-diri,
Nəsimilər, Babəklərdir həm şöhrətim,
həm də şanım,
Mərdanəlik nəsil-nəsil əcdadımdan miras,
qalıb,
Məni bütün yer üzündə tanıtdırıb bu
nişanım.
Azadlığın sorağında haray çəkib
zaman-zaman,
Özü duzlu,sözü duzlu, üzük qaşlı
Naxçıvanım,
Əbədilik səadətə çatıb xalqın qüdrətilə,
Əsrlərin yadigarı, 5 min yaşlı
Naxçıvanım.

QOCA ŞƏRQİN DİLBƏR QIZI

Duruşunda Cavanşirin əzəməti,
Koroğlunun vüqarı var.
Çünki sənə vüqar verən
Zərdüşt yurdu,
Bizim odlar diyarı var.
Qoç buynuzu
Qoşa zirvən
Buludlardan xərac alır,
Qartal sənə ucalmaqçün
Qanad salır.
Əlincəçay fatehlərin
qanqarışıq göz yaşıdır
ayağında.
Teymurlənglər
diz çökmüşlər qabağında.
Həkk olunub hər zəfərin
Əsrlərin yaddaşına.
Hər daşında
Güllə yeri,
Ox nişanı.
Tunc sinənlə illər boyu
Qorumusan
Qoca Şərqin dilbər qızı
Naxçıvanı!

Altay Tağızadə

ŞƏRURA GƏLSİN

Ayağı xan Araz, başı Sədərək,
Belində Arpaçay kəmərə bənzər.
Bəhəri yüz ləvin, barı rəngbərəng
Bayramını bəzər, toyunu bəzər
Qonağı ilk bara-nübara gəlsin,
Min ilham aldığım Şərura gəlsin.

Yallı qanadında dolaşar el-el,
Gəzər bir əfsanə -"Sara-Xançoban"
Nəğməsi dağlarda çağlayar sel-sel,
Bu yerin ulduzlu ulduzlarından
Göydə ulduz nura, Ay nura gəlsin.
Sazımda çaldığım Şərura gəlsin.

Toprağına əvəz, suyuna əvəz
Söylə torpaq hanı, söylə su hanı?!
Dünyanı dolaşmaq əbəsdir, əbəs,
Kim görmək istəsə Azərbaycanı
Deyirəm əvvəlcə qoy bura gəlsin,
Qurbanı olduğum Şərura gəlsin!

Muxtar Qasımzadə

KÖHNƏ QALA HAQQINDA BALLADA

Naxçıvanın yaxasında
bir qala var-
Köhnə qala.
Əsrlərdən qala-qala
köhnəlib o.
Tarixlərin tufanında
ələnib o...
Silkələyin bu qalanı
açılmayan sirləri var.
Mağaralar licimində
Vahiməli yerləri var.
Bura uzaq eraların
Yozulmamış yuxusudur.
Bu zağalar
Bu qalanın
İbtidai "metrosudur".
Məlikməmməd cəsarəti
istəyirəm
Bu sehrli metrolardan
keçib gələ.
Qədim nağıl dünyamızın
yel atında,
Ya Simruğun qanadında
uçub gələ...
Neçə-neçə əsrləri

yola salıb,
Özü qalıb Köhnə qala,
Köhnəlibdi qala-qala.
Buludların yağış dili
Ovxarlayıb divarları.
Diksindirib bu qalanı
Şimşəklərin havarları.
Yurdumuzun igidləri,
Döyüş üçün təbil çalıb.
Zaman-zaman abad olub,
Zaman-zaman viran qalıb.
Karvan-karvan daşınıbdı
Şadlıq burdan töhfə kimi.
Boylan möhrə hasarlara,
Dərd gətirib qabar-qabar,--
Hürgücü var dəvə kimi!
Bu "karvanın" ləngərinə
Dağlar fikri çənli baxıb,
Araz gözü nəmli baxıb...
Sükut qara libasında
Zağalara əsir düşüb.
Bu qalanı
Dərd əridib, qəm üşüdüb...
Səs verirəm,
Səs alıram zağalardan,
Xoflanıram
Qəhqəhəli sədalardan.
Gil tavandan
Bir daş qopub suya düşür,

Bütün qala haya düşür...
Qulağıma ərənlərin
Uğultulu səsi gəlir.
Lap uzaqdan
Qaraltılar peyda olur
Elə bil ki,
Bu qalanın qayğısını,
Qeyrətini çəkmək üçün
Dəli Həsən,
Dəli Domrul,
Neçə Oğuz,
Neçə oğul özü gəlir.
Qədim, ulu arxa kimi
Söykəyirəm
Divarlara kürəyimi.
Zağalardan keçə-keçə
əyilirəm.
Əyilmərəm,
Bu yerləri görmək üçün
Görün, necə əyilirəm!..
Əlin dəysə toza dönər,
Zalım daşlar fağır daşdı.
Tarixlərin heyrətindən
donub qalan,
yaddaşları yanıb qalan,
burda sükut uçqunları
ağır daşdı!!!
Bürünürəm
Qala boyda qaranlığa.

Qaradinməz sükutlardan
Səksənirəm bir anlığa.
Elə bil ki,
Mən yuxudan oyanıram.
Sıyrılıram
zağaların zülmətindən
Dünyamızın
işığına boyanıram.
Ürəyimdə bir qalanın
Hikmətini daşıyıram.
Həzrəti Nuh türbəsiylə
qürurlanan ər qalanın
qalxıb gələn
sakininə oxşayıram!
Göstərirəm yerə-göyə
Nəğmə qala, söz qalamı.
Ürəyimin işığına
Bələyirəm öz qalamı...

Vaqif Məmmədov

"GƏMİQAYADA DÜŞÜNCƏLƏR" SİLSİLƏSİNDƏN

1. Gəmiqayada

Yolunu bu yerdən sal, yolçu qardaş!
Çoxalsın qəlbində işığın, nurun.
Min tarix söyləsin hər qaya, hər daş,
Artsın əzəmətin, artsın qürurun.

Daşlar vərəqlənir qopuzun, udun
Səsini bizlərə dayışır burda.
Qoy ruhu şad olsun Dədə Qorqudun
Tarixin daş dövrü yaşayır burda.

Tunc dövrü başladı tariximizdə,
Daş alət tunc oxa, nizəyə döndü.
Neçə mağarada, dərədə, düzdə
Tunc qolbağ, muncuqlar bəzəyə döndü.

Torpağı min cürə nemət yetirir,
Günəş düzlərinə naxış, iz salır.
Buranın daşları çiçək bitirir,
Burada təbiət min rəngə çalır.

2. Gəmiqaya misralandı gözümdə

Dəli çeşmə dəli kimi çağladı,
Nəbi yurdu qəribsədi, ağladı.
Baldırğanlar Şırrançayı bağladı,

Bu zirvəyə həvəs duydum özümdə,
Gəmiqaya misralandı gözümdə.

Qapıcıqdan duman qalxdı yuxarı,
Sakkarsuyun dəyişildi axarı.
Yaşıllaşdı Çürüklünün baxarı,
Şeh göründü cığırımda, izimdə,
Gəmiqaya misralandı gözümdə.

Soyuqbulaq lap soyudu, buz oldu,
Düşündüyüm möcüzələr düz oldu.
Yaşıllığa lalə yağdı, köz oldu,
Hənir duydum lalə olan közümdə,
Gəmiqaya misralandı gözümdə.

Dava daşı məğrur durdu ər kimi,
Nacağaya qırov yağdı zər kimi,
Orda duydum qürurumu, ərkimi,
Ay işığı hiss elədim üzümdə,
Gəmiqaya misralandı gözümdə.

Yeddi çeşmə yeddi nəğmə oxudu,
Yamaclara əlvan xalı toxudu.
Bu yer tamam möcüzədi, yuxudu,
Əvəzi yox dəyanətdə, dözümdə,
Gəmiqaya misralandı gözümdə.

Bu torpağın qarışında izim var,
Sal daşında ocağım var, közüm var,

Əsrlərin sınağına dözüm var,
Burda qalır yaddaşım da, sözüm də
Gəmiqaya misralandı gözümdə.

3. Gəmiqaya lövhələri

Qaranquş bahardan mücdə verəndir,
Qaranquş yaylağı gül-çiçəkli yaz.
Dünəni soruşsan daşları dindir,
Əgər istiləsən dumanında az.

Bir ağac boynuna qolunu salsan
Gözlərin sulanar ay işığında.
Qaranlıq dərədən yolunu salsan
Bir gecə gedərsən çay işığında.

Zirvəsi boy verib buluda çatır,
Burda bir ilahi möcüzə vardır.
Dağın hər üzündə bir hikmət yatır,
Güneyi çiçəkdir, quzeyi qardır.

Şehli vaxt keçəsən yamacı-yalı,
Üstünə kollardan qırov ələnə.
Ürəksiz addasan qayanı, salı
Bir günə çatmazsan Camışölənə.

Bu yerin qarışı qızıldı, zərdi,
Tarixim yaşayır dörd bir yanında.
Ərənlər yurdumun nə qədər mərdi
Yatır Babəkilər qəbristanında.

Burda "Heyratı" var, burda "Cəngi" var,
Buranın sevinci, qəmi qayadır.
Daşların öz sirri, öz ahəngi var,
Buranın ünvanı Gəmiqayadır.

4. Qız-gəlin çuxuru

Qız-gəlin çuxuru sirlər saxlayır,
Turan tayfasından, oğuz elindən.
Bir səs qız-gəlini hey haraylayır,
Nə qızdan xəbər var, nə də gəlindən.

Dönüblər tarixin daş yaddaşına,
Hünər istəyir ki, tapa, oyada.
Özləri çevrilib məzar daşına,
Ruhları dolaşır Gəmiqayda.

Qız-gəlin çuxuru çiçək bitirib,
Bir sönən ocağın közü qalıbdır,
Zaman çox tarixi burda itirib,
Daşlarda tarixin izi qalıbdır.

5. Qaranquş yaylağında

Oğrusu, əyrisi az olduğundan
Yurd etdi bu yoldan ötən, buranı.
Burda hər fəsildə yaz olduğundan
Qaranquş eylədi Vətən, buranı.

Babalar nə dedi imandan, dindən
Yazıldı daşlara, hopdu daşlara.

İnsan bu yerlərdə yurd salan gündən
Həm də yaylaq oldu qaranquşlara

Qaranquş yaylağı dağlı-dərəli,
Sirlər xəzinəsi, söz dağı kimi.
Bu dağ səngər kimi-bəndli, bərəli
Dayanıb düşmənə göz dağı kimi.

Boz at kişnəyibdir bu dərələrdə,
Səs Nəbi yurdunda, oylağındadır.
Tarixi axtarma sən özgə yerdə,
Axtarsan Qaranquş yaylağındadır.

6. Gəmiqaya bayatıları

Buludun nəmi qaya,
Qüssəsi, qəmi qaya.
Burda bir möcüzə var -
Adı da Gəmiqaya.

Mərdlərin mərdi bura,
Azaldar dərdi bura.
Ey yolçu ayaq saxla,
"Nuh çıxan" yerdi bura.

Dağ-daş erkən oyanıb.
Zərli nura boyanıb.
Bu yurdun keşiyində
Dava daşı dayanıb.

Naxçıvan şəhərində Heydər Əliyev muzeyi

Heydər Əliyev Uşaq-Gənjlər Yaradıjılıq Mərkəzi

Heydər Əliyev adına məktəb

Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkı

Heydər Əliyev adına Hərbi Lisey

İlham Əliyev adına Olimpiya İdman Kompleksi

Diaqnostika Müalicə Mərkəzi

Naxçıvan şəhərinin yüksəklikdən görünüşü

Kimsə burda dayana,
Daş sirr açar duyana,
Sanki Cənnət bağıdır
Qapıcıqdan o yana.

Çəmənlər eşmə-eşmə.
Nəbi yurduna düşmə.
Özgə bulaqdan içsən
İnciyər Dəli çeşmə.

Yağılar azıb burda,
Hirslənib, qızıb burda.
Ədcadım tariximi
Daşlara yazıb burda.

Buludun nəmi qaya,
Qüssəsi, qəmi qaya.
Burda bir möcüzə var-
Adı da Gəmiqaya.

Asim Yadigar

DÜNYANIN BƏZƏYİ

Torpağı bəhərli, barlı,
İnsanları dağları kimi
vüqarlı,
Hər qarışı tarix dolu,
Yolu- haqq, ədalət yolu,
Sinəsi tarixin
savaş meydanı.
Al lələləri
şəhid oğullarının
qızıl qanı.
Adına nə qədər
söz qoşulub,
nə qədər dastan.
Naxçıvan!
Tarixin özü qədər qədim,
Qoynunda Nuh peyğəmbərin
ayaq izləri,
Gəmiqaya ulu babaların
tarixə naxışı,
"Biz də varıq !"-sözləri.
Əlincə-yağı başına
vurulan qapazındır,
İlanlı dağ ucalığın,
arzun-murazındır.
Oğulların kimi sərtdir
təbiətin, havan,
Naxçıvan!

Sinəndə at oynatmaq istəyən
Neçə-neçə yağının
gözü oyulmuş,
hər qızın, hər oğulun
Yad gözünə sancılan
ox olmuş.
Sözün, söhbətin
Dədə Qorqud dilində,
Min bir möcüzə vardı
Çiçəyində, gülündə.
Hər dağın, hər qayan
mərd Babəklər oylağı,
Odlar diyarının
ər qalası,
məğrur torpağı.
Ey nurlu diyar, işıqlı məkan,
Naxçıvan!

Cahan Pəhləvanın,
Qızıl Arslanın
nəfəsi var nəfəsində.
Tusin elm zirvəsində.
Cəlilin, Cavidin söz xiridarı,
Yusifin elmimizin,
Səidin nəsrimizin,
Məmməd Arazın şeirimizin
baharı.
Min-min oğulun,
qızın var zirvələrdə,
Şəninə əhsən deyir

Yer də, göy də.
Dillərdə dolaşır adın,
Aləm sənə heyran,
Naxçıvan!

Qartal kimi sinəndən
Pərvazlandı Heydərin.
Ağlına, zəkasına
Dünya dedi:-"Afərin!"
Dolaşdı qitələri
qəlbində sən,
Adını adıyla qoşa
tarixə yazdı
Harda adı çəkildi
Sandıq o yerdə yazdı,
Dahilər anası,
ey ulu diyar,
Daha nurlu,
daha gözəl
sabahın var.
Bu gün təzə naxış vurulur
Torpağına, daşına.
Qurub-yaradan əllər
Sığal çəkir başına.
Gözümdə işıqsan,
damarımda qan.
Ey dünyanın bəzəyi-
Nəqşi-cahan,
Naxçıvan, Naxçıvan!

Xanəli Kərimli

NAXÇIVANIM MƏNİM

Naxçıvanım - şanım mənim!
Qəlbimin şah damarında
axan təmiz qanım mənim!
İftixarım, şərafətim,
Basılmaz ad-sanım mənim!
Sən ecazkar tariximin
möhtəşəm bir səhifəsisən.
Azadlığın bayraqdarı,
İnqilablar mücdəsisən.

Dost üzünə gülər gözüm,
Düşmənə şax sözüm mənim!
Lap ölüm ayağında da
birsifətli üzüm mənim!
Sən halallıq ocağısan.
Onunçün də haqq sənindir.
Tanrının pak qucağı tək
Azərbaycan, vətənindir.

Köküm, soyum, izim mənim,
Rəngim, ruhum özüm mənim!
Aylı gecəm, sübh şəfəqlim,
Günəşli gündüzüm mənim!
Min illərdir yol gəlirsən

zülmətləri yara-yara.
Sən tarixə bəyan etdin:
Millət hara?!. Kölə hara?!

Ey şəhidlər qanı ilə
yoğrulan torpağım mənim!
Fırtınalar qucağında
sönməyən çırağım mənim!
Sən cahana sığışmayan
özün boyda bir qüdrətsən
Sən peyğəmbərlər vətəni,
bir müqəddəs məmləkətsən-!!..

Ucalığım - tacım mənim,
Hər an ehtiyacım mənim,
Dar günüm, ağır çağımda
əlacım, illacım mənim!
Nur çilədin qoca Şərqə
tarix boyu öz zəkanla.
Diz çökdürdün düşmənini
pozulmaz bir ehtişamla.

Bu dünya bir cənnətdirsə,
O cənnətin qapısı sən!
Varım, yoxum-nəyim varsa,
Cümləsi sən, hamısı sən!
Yaşa, xoşbəxt anım mənim-
Əbədi ünvanım mənim-
Doğma Naxçıvanım mənim!..

POEMALAR

İbrahim Yusifoğlu

BU NƏĞMƏM SƏNƏDİ, DOĞMA NAXÇIVAN

"Naxçıvan Azərbaycanın ən doğma diyarlarından biridir. Çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3.500 illik tarixi olan Azərbaycan torpağıdır"

* * *

"Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur..."

Heydər ƏLİYEV

Vətən nəğməsi

Nəğmələrin ən qədimi, ulusu,
Meyvələrin ən şirini,sulusu,
Bulaqların ayna kimi durusu-
Vətən nəğməsi!

Bu nəğmənin hər misrası "Cəngi"di,
Al qırmızı hər kəlmənin rəngidi.
Dar anında bir oyanış zəngidi-
Vətən nəgməsi!

İgidlərlə o,eyləyir yoxdan var,
Mərd əllərdə ilmələnər, toxunar,
Azad eldə, azad dildə oxunar-
Vətən nəğməsi!

Yollar gəlir Naxçıvana

Yarandığı əzəl gündən
Yollar gəlir Naxçıvana,
Bir zamanlar karvan yolu
Burdan keçib dörd bir yana

Çox atlılar, piyadalar
Bu şəhərə yol alıblar.
Mənzilə tez çatmaq üçün
Neçə kəsə yol salıblar

Sonra... sonra
Dəmir yolu
Bu torpağın qucub belin.
Böyük elə qovuşmağa
Köməyinə çatıb elin .
Çörək verib, su versə də,
Nankor qonşu nankor olur.
Yaxşılığı görməz, bilməz
Həm kar olur, həm kor olur.

Bəd qonşular Naxçıvanı
Yad oxlarla oxladılar,
Çətin anda, dar ayaqda
Yollarını bağladılar.

Quru yollar quraqlıqdan
Bulaq kimi qurumuşdu,
Blokada qəfəsində
Naxçıvanım Qu quşuydu.

Ulu Heydər Əliyevin
Siyasəti dada yetdi.
Araz adlı doğma çayı,
Əsirlikdən azad etdi.

...Yollar gəlir Naxçıvana
Xəbər tutduq kimdən,..kimdən....
Böyük elin İstanbuldan,
Qədim Təbriz şəhərindən

Yollar gəlir Naxçıvana...
Qəlbim coşur qürurumdan,
Ən geniş yol, ən rahat yol,
Keçir mənim Şərurumdan.

Bu yolları quca-quca
Ürəyimə İlham doldu.
Naxçıvanda gördüklərim
Mənim nəğmə payım oldu.

Bu nəğməm sənədi, doğma Naxçıvan

Gəzirəm qoynunu hey qarış-qarış.
Nura boyanırsan doğulanda dan.
Hər yanda yüksəliş, hər yanda yarış,
Bu nəğməm sənədi,doğma Naxçıvan.

Sən Oğuz elisən, Nuhun yurdusan,
Tarixlər yaşayır "Gəmiqaya"nda.

Alınmaz qalasan, qalib ordusan,
"Əlincə" mərd olub ən ağır anda.

Qoynunda çağlayan çeşmə suları
Evləri dolaşır, sərinlik yayır.
"Sirab", "Badamlı" tək əvəzsiz varı
Çoxları dərdinin dərmanı sayır.

Zəhmətlə yaşayan oğul, qızların,
Min nemət yetirir hər bucağında.
Kəhrəba üzümün,şipşirin narın,
Sulanır, qızarır gen qucağında.

Memar Əcəminin gənc nəvələri,
Tikirlər, qururlar, gözəlləşirsən.
Müstəqil günündən ta üzü bəri,
Gözəl diyarlara bərabər-birsən.

Qovmusan başından dumanı, çəni,
Toylu, büsatlıdı qoynunda hər yan.
Qəlbimdən süzülən bu şən nəğməni,
Sənə bəxş edirəm, doğma Naxçıvan!

"Naxçıvan qədim zamanlarda Azərbaycanın ən mötəbər bölgələrindən biri olubdur. Azərbaycana, o cümlədən Naxçıvana əsrlər boyu dəfələrlə yadellilərin basqını olmuşdur, müharibələr, döyüşlər zamanı insanlar qırılmışdır. Naxçıvan dəfələrlə tamamilə məhv olub külə dönmüş, amma insanlar yenə də külün içindən qalxıb Naxçıvanı yaşatmışlar...

...Naxçıvan Azərbaycanın Dədə Qorqud mərkəzindən biridir və "Kitabi Dədə Qorqud"un çox izlərinin Naxçıvanda olması Naxçıvanın Azərbaycanın nə qədər qədim və zəngin diyarı olduğunu bir daha göstərir..."

Heydər ƏLİYEV

Kiçik haşiyə

Naxçıvanım!
Ulu tanrı yaratdığı əzəl andan,
Odlar yurdu Azərbaycan olmuş sənin doğma anan
Sinə gərib düşmənlərin od püskürən davasına,
Vüqarını məlhəm qoydun igidlərin yarasına.
Sinən üstə əsrlərin silinməyən izləri var,
Qucağında Əcəmidən abidələr var yadigar.
Xan Arazın, Arpaçayın dastanıdır aşıqların,
Tükənməyən duz dagları nemətidir bu diyarın.
Söz açılıb daglarından, baglarından, çox varından.
Övladların gileylənməz boranından, baharından.
Göz gəzdirib fəsillərdə qayalara salsan nəzər,
Görəcəksən, "Gözəl kəklik"daşdan-daşa necə səkər.
Qəlb oxşayan bağlarında, əziz diyar,nəyin yoxdur,
Alma, armud, gilənarın, sarı limon, heyvan çoxdur.
Yaylagında sərin bulaq, min naxışlı çəmənin var,
Novruz günü qapı-qapı paylamağa səmənin var
Övladların su çəkirlər Xan Arazdan Böyükdüzə,
Nəvələrin çalışır ki, yollar boyu çinar düzə,
Arpaçayı!...
Gizlətmirdin,incimişdin sən də ondan,

Ancaq gördün günahsızdır, uzaqdı o, nahaq qandan.
Böhtanlamış zaman onu, bulandırmış saf suyunu.
Dözəmmədi, coşdu-daşdı, başımıza oyun açdı!
Min zəhmətlə çay önündə çəkildi bənd,
Dəyişdi öz simasını neçə oba, neçə də kənd,
Mənim dogma Naxçıvanım!
Dünya bilir, azğın düşmən torpağına qıcayıbdı dişlərini,
Haqq, ədalət məhv edəcək onların bəd işlərini,
Naxçıvanım!
Müstəqillik günəşidir üzərinə nur ələyən,
Sən gözəllik məskənisən-
Övladların şən nəğməli, azad səsli,
Qucağında bəsləyirsən xoş günlərə gedən nəsli.

"Naxçıvan artıq 1991-92-93-cü illərdə olan Naxçıvan deyil. Naxçıvan indi tamamilə başqadır. Naxçıvanlılar özlərinin dəyanəti, dözümlülüyü, qüdrəti, cəsarəti və mənəvi saflığı ilə bu haqqı qazanıblar...

...İndi Naxçıvan böyük inkişaf yoluna düşübdür"

Heydər ƏLİYEV

Addım-addım gəzirəm gözəlləşən şəhəri,
Gecələri nurludu, günəşlidi səhəri.
Daha əl götürübdü kədərindən, qəmindən,
Bir əlamət qalmayıb dünənki görkəmindən.
Yollar qara örtüyə çox hamar bələnibdi,

Hər qarış torpağına bərəkət ələnibdi.
Yöndəmsiz döngələrin təbilləri çalınıb,
Yerlərində qəlb açan xiyabanlar salınıb,
Neçə köhnə tikili yeni görkəm alıbdı,
Milli naxışlarıyla binalar ucalıbdı.
Baxanı heyran qoyur memarlıq inciləri,
Aydıncana görünür Əcəminin izləri.
Ensiz torpaq küçələr meydanlara çönübdü,
Səkilərin ətrafı yaşıllığa dönübdü.
Qoynuna qonaq gələn heyrətlənir bircə an,
Bu günkü Naxçıvana ürəkdən olur heyran.
Burda insan oğlunun zəhməti verir bəhər,
Arazın sahilində gəncləşir qədim şəhər.

Xalqı bəlalardan qurtardın, Baba

Ulu Tanrı bəxş edib hər sərvəti bu yurda,
Sərvətlər ucbatından çox vaxtlar düşüb oda.
Onun daha qiymətli ləl-neməti varıdı-
Dünyaya bəxş etdiyi dahi övladlarıdı.
Əbədilik olubdu qəlbimizdə yerləri,
Ən gözəl güşələrdə ucalır heykəlləri.
Nur işığın içində süzürəm dörd bir yanı,
Görürəm qranitə dönən dahi insanı.
Qəlbimdə pak məhəbbət önündə baş əyirəm,
Sağlığında yazdığım nəğməmi söyləyirəm.

Qanlı döyüş getdi torpağımızda,
Yadlara verildi neçə el-oba.

Ağır günümüzdə, dar anımızda,
Çatdın dadımıza sən, Heydər baba!
O qədər qəm-qüssə var canımızda,
Neçə çiçək vaxtsız solmuşdu, baba!
Ağır anımızda, dar çagımızda,
Hamı siyasətçi olmuşdu, baba!
Nə bağbanlıq edən, nə bağlar qaldı,
Nə də ki, torpağa toxum səpildi.
Taxıl zəmisini alaqlar aldı,
Çörək təknələrdən göyə çəkildi.
On ilə on sözü yaza bilməyən
Millətə "Əlifba" təbliğ eylədi.
Dilini yad dilə dustaq eyləyən,
Xalqa millilikdən şeir söylədi.
Didişdi, çəkişdi ata-oğulla-
Kimin partiyası kimin quludu?
Yüz cürə partiya, cəmiyyət ola,
Bütöv Azərbaycan bizə uludu.

Çoxları qorudu vəzifəsini,
Görmədi vətəndə çən, duman nədi.
Onlar eşitmədi top səslərini,
Bilmədi, bu gedən müharibədi.

Bircə gün, bircə an öz xanımları,
Dadmadı ağrıya sinə gərməyi.
Təkcə bircə kərə öz balaları,
Bilmədi səngərə necə girməyi.

...Hamı siyasətdən danışdı,Baba-
Çörək yeyəndə də, yol gedəndə də.
O qədər "Talantlı" oldular, vallah,
Göstəriş verdilər Prezidentə də.
...Bəli, döyüş getdi torpağımızda,
Yadlara qalıbdı neçə el-oba.
Ağır günümüzdə, dar anımızda.
Xalqı bəlalardan qurtardın, Baba!

Kiçik haşiyə:

Ulu Tanrı bu yurda səxavətlə bəxş edib,
Torpaqaltı, yerüstü abidələr, qalalar.
Qayalar üzərində möcüzələr nəqş edib
Siyasətçi, sənətkar, cəsarətli babalar.

Yaşı çoxdu, qədimdir-nədir ki, üç yüz min il,
İlk yaşayış məskəni Naxçıvanım olubdu.
Xəyanətlər ucundan başı üstə əsib yel,
Çox qiymətli yazılar silinibdi, solubdu.

Sinəsində yol verib Araza, Arpaçaya,
Qoynunda buz bulaqlar, çeşmələr çağlayırlar.
"Əshabi-Kəhf",
"Əlincə",
Nuh yurdu "Gəmiqaya",
Qədimliyi, paklığı qoruyub saxlayırlar.

"Yusif Küseyr oğlu",

"Mömінə Xatın" kimi,
Türbələr bu şəhərin incisidir-zəridir.
Dolaşdıqca qoynunu sevinc yaxır qəlbimi,
-Mənim gözəl şəhərim muzeylər şəhəridir.

Heydər Əliyev muzeyi--Naxçıvan MR Ali Məclisinin 18 fevral 1999-cu il tarixli sərəncamı ilə yaradılmışdır. 1999-cu il mayın 10-dan fəaliyyət göstərir. Naxçıvan şəhərində Heydər Əliyev prospektində yerləşir. Muzeydə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənçlik illərinə həsr olunmuş stendlər, Naxçıvan MR Ali Məclisinin sədri işlədiyi dövrə (1991-1993) aid şəxsi sənəd və materiallar, imzaladığı məktub, qərar və sərəncamlar, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanmışdır.Burada "Xalqımla həmrəyəm", "Qayıdış", "Naxçıvan yaşayır və döyüşür" bölmələri yaradılmışdır.Muzeyin kitabxanasında Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən curnal, albom və kitablar saxlanılır.

("Naxçıvan ensiklopediyası"ndan)

Naxçıvan şəhərində
Göz oxşayır dörd bir yan.
Gen qoynunda salınır
Neçə küçə, xiyaban.

Məktəb binalarının
İlbəil artır sayı.
Xan dikində ucalır
Mədəniyyət sarayı.

Bu torpağa əbədi
Bağlıyıq canımızla.
Bakıya qovuşuruq
Hava limanımızla.

Adını çəkmədiyim
Hələ neçə məbəd var.
Onlar Heydər Əliyev
Adını daşıyırlar.

Şəhərin mərkəzində
Əzəmətli bina var.
Yolumuza həmişə
Nur səpər, işıq saçar.

Görkəmi də, adı da
Bizə doğma, əzizdi.
Həyətində gülləri
Ətirlidi, ləzizdi.

Bura Odlar yurdunun
Güneyi, quzeyidir.

Bu Heydər Əliyevin
"Xatirə muzeyi"dir.

Ürəyində hər kəsə
Böyük sevgi bəsləyən,
Yer üzünü həmişə
Ədalətə səsləyən,
Doğma el, obasını
Heç vaxt qoymayan darda
Onlarla nəfəs alan
Olsa da harda ...harda...
O dahinin ömrüdür
Yaşayan tablolarda.

Bir gün Qorqud Dədənin büstü ucalan yerdə
Daş parçası dururdu, düz qırx il bundan öncə.
Yazılmışdı bir üzü solğun hərflər ilə:
"Heykəl ucaldılacaq burda Mirzə Cəlilə".
Vədə əməl etməmək səbrimizi kəsirdi,
Buradakı pintilik ürəkləri əzirdi.
Naxçıvanda duyulcaq təzə nəfəs, yeni səs,
Bulaq kimi duruldu, yerini tutdu hər kəs.
Mirzə də əyləşibdi əsil sənət bağında ,
Gözəlliyi seyr edir təbəssüm dodağında.
Gül çələngi qoyuram abidənin önünə,
Gəlirəm söz söyləyəm onun ev muzeyinə.

**CƏLİL MƏMMƏDQULUZADƏNİN
EV MUZEYİ**

Naxçıvanda-Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə 1998-ci il dekabrın 31-də Cəlil Məmmədquluzadənin doğulduğu, uşaqlıq və gənclik illərini keçirdiyi evdə (hazırda Naxçıvan şəhərindəki İ.Məmmədov küçəsində) yaradılmışdır.Açılış 1999-cu il oktyabrın 13-də olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev muzeyin açılış mərasimində nitq söyləmişdir. Muzeydə böyük ədibin həyat və yaradıçılığına dair ekspozisiya nümayiş etdirilir.

Cəlil Məmmədquluzadəyə və onun ailəsinə məxsus şəxsi məişət əşyaları, o cümlədən yazıçının naxçıvanlı müasirlərinə aid sənədlər, onun mütaliə etdiyi klassiklərin əsərləri muzeyin eksponatları sırasındadır.

("Naxçıvan ensiklopediyası",
səhifə 310, Bakı 2002)

Xoş gördük,Mirzə Cəlil,
Xoş gördük böyük ustad,
Qəlbimizdə həmişə
sənə sevgi bəslənir.
Sən həyatda qazandın
ən milli bəşəri ad,
Dilimizdə saf,
incə kəlamların səslənir.

Dövrün eyiblərini açıb dedin üzünə,
Gecə-gündüz ömrünə böhtanlı şaxta doldu.

Çox istədin millətin çıxsın xoşbəxt, ağ günə,
Bu yollarda həmdəmin "Molla Nəsrəddin"oldu.

Müqəddəs qələminlə xalqa xidmət eylədin
Ürəyini göynədib oba dərdi, el dərdi,
Zamanın ağrıların bir-bir açıb söylədin,
Yazdığın əsərlərin həmişə təzə-tərdi.

Xoş gördük, Mirzə Cəlil, xoş gördük böyük ustad,
Dilimizdə sözlərin şərqi kimi səslənir.
Bu gün müstəqil olan ulu Nəqşicahanda,
Sənin kimi dahiyə xoş məhəbbət bəslənir.

Gəzirəm şəhərimi, ay doğub, işıqlanıb,
Gözlərimin önündə ötən günlər canlanıb.
...Yenə bir daş parçası, yenə də solğun elan,
Yenə də öz vədini olmadı yada salan.
Yalançı bir qurluşun keçirdi yalan fəndi:
"Heykələ dönəcəkdi burda Cavid Əfəndi!"
Onsuz da Mircəlladla şair sarımamışdı,
Öz doğma vətənində bəxti yarımamışdı.
O günlərin izi var torpağında, daşında,
Xatirələr yaşayır tarixin yaddaşında

1937...
Çox səmtsiz əsdi külək,
Səbirləri kəsdi külək,
Deyilmədi:bəsdi, külək,
Külək, Cavidə toxunma.

Bu sərt külək qar gətirdi,
Yola, izə tar gətirdi,
Hədə, qorxu, ar gətirdi:
-“Peyğəmbər”, “Xəyyam”, oxunma.
Kəsmədi külək, kəsmədi,
Azər çaşdı: bu qəsd nədi?
Maral qəmli nalə çəkdi:
-Yavrum, “Uçuruma”a toxunma!

Bəd xəbərdən ana çaşdı,
Şeyda dərddən gözü yaşlı,
Topal Teymur coşub daşdı,
-“Şeyx Sənan”, “İblis”, oxunma!

1981...
Günəş vardır Heydər adlı,
Heyran qoydu doğma, yadı.
Dahi qərar imzalandı,
Cavid döndü öz elinə.

Al geyindi Nəqşicahan,
Ətir saçdı burda hər yan.
Nur ələdi göydən baxan,
Cavid döndü öz elinə.

Ancaq düşmən marıqdaydı,
Yol gedirdi, çarıqdaydı,
Gücü saxta tarixdəydi,

Göz dağıydı öndərimiz,
Heydər adlı rəhbərimiz !
Qansız qonşu dinəmmirdi
Nələr etsin, biləmmirdi,
Qorxub, torpaq dilənmirdi,
Qorundu kənd, şəhərimiz,
Heydər baba rəhbərimiz!

Axır yadlar qurma qurdu,
İstəyinə nail oldu.
Üstümüzə saldı ordu,
Tanrıya çatdı səsimiz:
Heydər olsun rəhbərimiz!

O, ömrünü oda atdı,
O, qayıtdı, dada çatdı,
Cavidə məbəd yaratdı:
-Sağ ol, sağ ol, deyirik biz,
Heydər baba rəhbərimiz!

... İlin bütün çağında, qəlbən Cavid sevənlər
Bu möhtəşəm məbədi ziyarət eləyirlər.
Burda uyuyanlara-Cavidə, Müşkünaza,
Ərtoğrula, Turana min rəhmət diləyirlər.

NAXÇIVAN GÖZƏLİNƏ

Naxçıvan şəhərinin sinəsi üzərindən
Kol-kosun arasıyla "Bazarçay"ı axırdı.

O vaxtkı başçıların düşmüşdü nəzərindən
Çayın görkəmi bizi yandırırdı, yaxırdı.
Şəhərdəki bazarın qarşısında, önündə,
Yığılan tullantılar bənzəyirdi lap dağa.
"Bazarçayı" burada dönmüşdü çirkli gölə,
İylənmiş sularda oxuyurdu qurbağa.

Bir vaxtlar sevənlərin gizli görüş yeriydi,
Qoynu beş-on ağaclı balaca Sabir bağı.
"Əcəmi seyrangahı" nə belə gözəl idi,
Nə də qəlb oxşayırdı qəmli "Qızlar bulağı".

...Bu gün vəsf eyləyirəm toxum səpən, gül əkən,
Tanrı övladlarının yorulmayan əlini.
"Qızlar bulağı"ndakı telinə sığal çəkən,
Seyrangahda dolaşan Naxçıvan gözəlini:

Naxçıvan gözəli, bu şölə, bu nur,
Səpilir aləmə baxışlarından.
"Bir bala ceyranın gözündən duru",
Gözlərin dənərdi dağlar qarından .

Bunu hamı görür necə gözəlsən,
Tanrı göndəribdir, Sənan dağından.
"Qızlar bulağı"ndan Möminə nənən,
Sənə su içirib uşaq çağından.

Bu gün ana yurdun bu Nəqşi-cahan,
Ellərin gözəllik ilahəsidir.

Alma yanağına sübh üzü qonan,
Ağ gözəl, Şahbuzun dağ laləsidir.
Bol nemət yetirir qızıl əllərin,
Kəhrəba üzümlü, heyva, narlısan.
Min bir zəfərlidir ötən illərin,
Ordubad limonlu, Şərur varlısan.

İnci budaqların ürək oxşayır,
Onlara şirinlik, saflıq qatırsan.
Səni hər kim görür, bəxtəvər sanır,
Bütün istəyinə axı çatmısan.

Tikilir, qurulur qədim Naxçıvan,
Hər an gözəlləşir bu xoş günündə.
Çiçək dənizidi qoynunda hər yan,
Bütün gözəlliyin sənsən önündə.

"BÖYÜK BAĞ"DA

Nəvələrim yanımda gəzirik Böyük bağı
Önümüzdə hər qarış nur, çıraqban içində,
Baxmaqla doymaq olmur yaşayır gözəl çağı,
Kollar da, ağaclar da özünəxas biçimdə.

Nəvələrim qarışır şən nağıl dünyasına,
Müqəvva ayıları, quşları ovlayırlar.
Hovuzda nazla üzən ördəkləri, qazları,
Həvəslə yemləyirlər, doyunca oynayırlar.

Bu gün də mənə əziz, çox doğmadı "Böyük bağ",
Kövrək xatirələrim xəyalımda canlanır,
Tələbə dostlarımla bağda hey toplaşırdıq,
Onları aramağım gözlərimdən anlanır.

O zamanlar qədim bağ gözəl görünməyirdi,
Dörd yanı cır ağaclar, kol-koslar bürümüşdü.
Öz sərin kölgəsiylə yayda öyünməyirdi,
Budaqlar qurumuşdu, gövdələr çürümüşdü.

Bu yerlərdə hər bir an qorxuluydu dolaşmaq,
Götürmüşdü dəstələr "Pələng", "Ayı" ləqəbin.
Bir vərdişə dönmüşdü dava salmaq, dalaşmaq,
Qarşısı alınmırdı bəd adətin, pis dəbin.

Yöndəmsiz görünürdü, yeməkxana, çayxana,
Bataqlığa dönmüşdü həm güneyi, quzeyi.
Utanırdın deyəsən qarşındakı binaya,
Mirzə Cəlil adına "Ədəbiyyat muzeyi".

"...Əyləncə mərkəzi" ndən baxıram dörd bir yana,
Füsunkar gözəlliyi tərənnümə hazıram.
Qələmimlə, kağızla güvənirəm ilhama,
"Böyük bağ" adlı şeiri min həvəslə yazıram.

Sağım-solum çiçək, güldü,
Göylər təmiz, bəyaz tüldü,
Hara baxdım gözüm güldü-
"Böyük bağ"da.

Yol qovuşur burda yola,
Ətir çöküb ota, kola,
Doğmalar gəzir qol-qola-
"Böyük bağ"da.

O, şairdir fikrə dalıb,
Müəllim saça dən salıb,
Rəssama bax, ilham alıb-
"Böyük bağ"da.

Təmiz hava alanlar var,
Xatirəyə dalanlar var,
Əsri yola salanlar var-
"Böyük bağ"da.

Misilsiz büsat qurulub,
Havası, suyu durulub.
Bağların bağı qurulub
"Böyük bağ"da.

ƏDƏBİYYAT MUZEYİ: *"C.Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyi Azərbaycan SSR Nazirlər Sovetinin 1966-cı il tarixli qərarına müvafiq olaraq, 1967-ci il iyunun 12-də Naxçıvan şəhərində açılmışdır; açılış zamanı 98 eksponat var idi, hazırda onların sayı 18000-dən çoxdur".*

("Naxçıvan ensiklopediyası"ndan, Bakı 2002)

"Ədəbiyyat muzeyi"-
Dahi Mirzə Cəlilin
adına olan muzey...

“Böyük bağ”da üstünü
almışdı kölgə, quzey...
Burada yığışardıq
ədəbi məclislərə,
Qarışardıq təzə-tər
duyğulara, hisslərə,
Yamanca çəkinərdik
Nizaminin, Sabirin,
Nəsiminin, Cavidin,
Böyük Mirzə Cəlilin
Ədib baxışlarından
Qorunurduq hər zaman
Üstümüzə ələnən
Yersiz söz yağışından.
Muzeydə əlyazmalar,
Nadir nüsxə kitablar
Darısqal otaqlarda,
Taxçada saxlanırdı.
Tarixlərdən yadigar
Qalan sirli əşyalar
Boğçalara yığılıb
Kiliddə saxlanırdı.
Bu gün təravətlidi
Göz oxşayır “Böyük bağ”
Gur işığa bələnib
Həm güneyi, quzeyi.
Naxışlardan don geyib
Baxır üzü günəşə
Mirzə Cəlil adına

Ədəbiyyat muzeyi.

Kiçik haşiyə:

Dağ kəndindən həvəslə qanadlanıb uçaraq,
Naxçıvan şəhərində qonmuşdum pedməktəbə.
Yararsız bu binaya çox heyrətlə baxaraq,
Bütün düşüncələrim çevrilmişdi heyrətə.

İkinci mərtəbəyə çatan köhnə pillələr,
Taxta ömürlərini artıq başa vurmuşdu.
Sinif otaqlarında nələr görürdüm, nələr...
Rəngi solmuş partalar cərgələnib, durmuşdu.

İstərdik hər tədbiri keçirək qələbəlik,
Yer dərdindən həmişə qalırdıq yaman darda.
Nə qədər şən, mənalı olsa da tələbəlik,
Ömrümüzün dörd ili keçdi bu otaqlarda.

TƏLƏBƏ DOSTLARIMA...

O vaxt ömrümüzün bahar çağıydı,
Yaşımız on beşə çatmışdı təzə.
Gənclik kitabımız hələ ağıydı,
Həyat öz imzasın atmışdı təzə.

Elə tez qaynayıb qarışdıq ki, biz,
Elə bil illərin tanışı idik.
Fikrimiz işıqlı, arzumuz təmiz,

Pedməktəb ömrünü müqəddəs bildik.

Gözlərim önündə dayanıbdılar,
Yenə də mehriban, yenə də gülər.
Cəmi dörd oğlandıq, əllisi qızlar
Hər biri çiçək tək gözəl, təzə-tər.

Oğlanlar arada yayındı dərsdən,
Tapardı bəhanə kurskom Səkinə:
-Yusif növbətçidir, Vidadi xəstə,
Novruzla İbrahim dəvət olunub
"Gənclər günü"ndəki şeir gecəsinə!

Qızlar gözlədilər sevgi həddini
Onlar layiq oldu öz mənliyinə.
Münəvvər, Tamaşa, Müşafəddinin,
Yollandıq Cəhriyə toy şənliyinə.

Neynirdin balaca, çəlimsizliyin,
Adamı hiss edib duyardı Sona.
Şəhla hiss etmədi kimsəsizliyin,
Çatdırdı təhsilin uğurla başa.

Eşqində saf oldu, müqəddəs oldu,
Bəstəboy, alyanaq, gözləri göy qız.
Sevdiyi gözünün ilk ovu oldu,
Neçə"aşiqlər"i qoydu cavabsız.

...Gözlərim önündə dayanıbsınız,
Hamınız mehriban, sevinir ürək.

Günəşin nuruna boyanıbsınız,
Müəllim adınız olsun mübarək.

"Mən fəxr edirəm ki, bir çox böyük dövlətlərin zəngin tarixə malik olan Universitetlərinin fəxri doktoruyam. Ancaq daha da çox fəxr edirəm ki, mən Naxçıvan Muxtar Respublikasının Yusif Məmmədəliyev adına Universitetinin doktoruyam".

Heydər ƏLİYEV

Ali məktəbimiz də ürək açan olmadı,
Yolumuz hər döngədən çəpərə alınmışdı.
Görkəmi göynədirdi həm doğmanı, həm yadı,
Sovetlər ordusuna kazarma salınmışdı.

Bu diyarda illərdi qorxmayırlar çətindən,
Hər çəkilən əməyin zəhməti bar, bəhrədir.
Məhz Heydər Əliyevin sonsuz məhəbbətindən
Mənim Universitetim şəhərdə bir şəhərdir.

MƏNİM UNİVERSİTETİM

Qəlbinə min fərəh, sevinc qatıbsan,
Üzündən kədəri, qəmi atıbsan,
Ömrün xoş ilinə gəlib çatıbsan-
Mənim Universitetim.

Ulu məbədgaha, ocağa taysan,
Qoynu behişt kimi baharsan, yaysan,

Heydər babamızdan bəxşişsən, paysan-
Mənim Universitetim.
Yaşına baxanda hələ cavansan,
Yenilik yaradan, elmi yayansan,
Haqqın var həmişə öndə dayanasan-
Mənim Universitetim.

Mən də taleyimi sənə bağladım,
Dərs aldım, söz qoşdum, coşub çağladım,
Safdır, müqəddəsdir müəllim adım-
Mənim Universitetim.

Hər gün dəyişirsən öz büsatını,
Baxmaqdan doymayır göz büsatını,
Tərənnüm edəmməz söz büsatını-
Mənim Universitetim.

Son söz əvəzi:

İlin bütün çağında qoynu hərarətlidi,
Naxçıvan şəhərinin güneyi, quzeyləri.
Tikilən binaları möhtəşəm, heyrətlidi,
Məktəblər xatırladır tarixi muzeyləri.

Süzdükcə şux boyunu ürəyimə gəlir ki,
Naxçıvanım daha gur nura boyanacaqdır.
Böyük Müşfiq demişkən:
"Hələ bunlar nədir ki..."
Ən gözəl şəhərlərlə qoşa dayanacaqdır!

Həsənəli Eyvazlı

NAXÇIVAN HAQQINDA BALLADA

Ey Şərqin qapısında
Günəş kimi parlayan,
Sönməz mayağım mənim!
Əyilməyən qamətim,
Bükülməyən dizlərim,
Arxam, dayağım mənim -
Ey doğma Naxçıvanım!
Neçə tarix yaşayır,
Sənin daş yaddaşında.
Neçə tarix yaşayır,
Baharında, qışında.
Daim qələbə çaldın,
Neçə ər savaşında.
Kimsələrin önündə,
Sınmadın, əyilmədin.
Vüqarlı bir qala tək,
Dözdün, dayandın mətin.
Neçə - neçə yağının,
Bu torpağın üstündə
Məzarları qazıldı.
Şanına, şöhrətinə,
Neçə dastan yazıldı.
Sən Cahan Pəhləvanın
Qılıcıyla ucaldın.

Bac vermədin heç kimə,
Özgələrdən bac aldın.
Atabəylər dövrünü
Yaşadın zaman - zaman.
Çiçəkləndin günbəgün,
Ucaltdı səni dövran.
Tarixin dönəmləri,
Əsdirdi qara yellər.
Neçə yol dağıdıldı,
Talandı doğma ellər.
Beləcə başa vurdun,
Neçə əsri, illəri.
Qismətinə yazılmış,
Ağ-qaralı günləri...

***

Sən ey əziz anamın,
Doğma anası, elim!
Sən ey sevən qəlbimin,
Əziz sonası- gülüm,
Ey doğma Naxçıvanım!
Doğma Odlar yurdumun,
Ayrı düşən balası.
Neçə şəhid verərək
Bağrı bişən laləsi.
Ey doğma Naxçıvanım!

İyirminci yüz illiyin,
Zəfər çələngin aldın.
Dağıdıb tor simləri,
Azadlıq savaşında
Öndə birinci oldun.
Müstəqillik yolunun
Sən ilk qaranquşusan.
Bahar gəldi elimə
Qovdun getdi, qışı sən.
Düşmənin qabağında
Qüvvə tapdın qolunda.
Neçə illər vuruşdun,
Azadlığın yolunda!...

***

Çən yatmışdı hər yana,
Gəlmişdi çovğunlu qış.
Səni yaman didirdi,
Yağılar qarış- qarış.
Naşı "rəhbərlərin"
Dörd olmuşdu gözləri.
Kürsü hərislərinin,
Bükülmüşdü dizləri.
Daha nə danışsalar,
Xalq inanmır sözünə.
Özlərinin inamı,
Qalmamışdı özünə
Erməni hücumları,
Çaşdırmışdı onları.
Daha çıxış yoluna,

Yox idi gümanları.
İgidlər qan tökürdü.
Bütün sərhəd boyunca,
Neçəsi kam almadı
Bu həyatdan doyunca.
Analar göz yaşıyla,
Göylərə əl açırdı.
Xalqımın ümidgahı,
Vətəninə uçurdu.
Günəş öz ziyasıyla,
Yoluna nur saçırdı.
Tanrının göndərdiyi
Nicat işığı idi.
Tanrının vergisiydi,
Vətən aşiqi idi.
Gətirirdi o nuru,
Yaya bütün cahana.
Nicat yolu göstərə,
Doğma Azərbaycana.

***

Bütün el yığışıbdı,
Hava limanındadı.
Ulu Öndərim gəlir,
Allah amanındadı.
Təyyarə süzüb yenir,
Gümüşü qanadıyla.
Alqış səsi yüksəlir,

Heydər, Heydər adıyla.
Təyyarənin önündə,
Ayağının altına,
Neçə qurban düzüldü.
Həmin gün tariximə,
Yeni tarix yazıldı.
Sevincli göz yaşları,
Üzdə şırım açırdı.
Hamı Vətən oğlunun,
Hamı Ulu Öndərin,
Qabağına qaçırdı.
Gəlirdi xalqa sarı,
O, öz dağ gövdəsiylə.
Gəlirdi xalqa sarı,
Gülümsər çöhrəsiylə.
Siyasət aləminin,
Sərkərdəsi gəlirdi.
Xalqımın ümidgahı,
Haqqın səsi gəlirdi.
Gəlirdi-
Xalqa sarı,
Xalqın oğlu gəlirdi!
Kamalı, düşüncəsi,
Xalqın ağlı gəlirdi!..

***

O qan-qadalı gündən,
Neçə fəsillər keçib,
Neçə illər ötüşdü.
Öndərimin əliylə,

Onun iradəsiylə,
Hər iş yoluna düşdü.
Daxili çəkişmələr,
Sona yetdi, sovuşdu.
Xalqımız azadlığa,
Əbədilik qovuşdu!..
Bu günkü dünyamızın,
Qurtuluşu yolunda,
Öz yolunu seçdi O.
İşiylə, əməliylə,
Tanrının dərgahına
Alnı açıq köçdü O!..

***

Dünya yenə fırlanır,
Özü, öz mehvərində.
Bu gün davamçıları
Durub onun yerində.
Rəhbərin adına,
Layiq işlər görülür.
Yurdumuz başdan-başa,
Abadlaşır, qurulur.
Quruculuq işləri,
Günbəgün vüsət alır.
Hər kənddə, hər şəhərdə,
Neçə məktəb ucalır.
Susuz, şoran düzlərə,
Kanal açır, su çəkir.
Neçə-neçə kəndlərə
Körpü salır, yol çəkir.

Xatirə Muzey Kompleksi

Hüseyn Cavid məqbərəsi

"Təbriz" mehmanxanası

Koroğlunun heykəli

Babəkin heykəli

Şərur Rayon Mərkəzi Xəstəxanası

Naxçıvan - ana yurdum,
Günbəgün gözəlləşir.
Hansı yana baxırsan,
Gül çiçəyə bələnib.
Göydən yerə elə bil,
Laləzarlıq ələnib.
Naxçıvanım dönübdü
Gülzarlıq məkanına.
Naxçıvanım dönübdü,
Tikinti meydanına.
Yeni ünvan yazılır,
Hər gününə, anına.
Bir dahinin adına,
Layiq işlər görülür.
Hər gün yeni ünvana,
Heydər- adı verilir.
Bu, haqqı olub onun,
Haqqı çatır bu gün də.
Xalqına arxa olub,
Çətin gündə, dar gündə.
Naxçıvan - ana yurdum,
Öz donunu dəyişir,
Günbəgün gözəlləşir.

Bu yüksəliş günündə,
Arzular aşır, daşır.
Qoca Şərqin qapısı,
Günbəgün cavanlaşır!..

Naxçıvan 2004

Elxan YURDOĞLU

BU GÖZƏLLİK BİZİM ÜÇÜN DEYİLMİ?

(publisistik poema)

Əlimə qələm alıb sözə könül verəndən,
Şairlər, yazıçılar cərgəsinə girəndən,
Hər zaman düşünürdüm, vəsf edim Naxçıvanı-
Bu müqəddəs diyarı, bu tarixi məkanı.
Bilirdim ki, nə vaxtsa könlüm coşub-daşacaq,
Bu ulu gözəlliyə layiqli söz qoşacaq.
Amma bu bir gerçək ki, hər gün qarşılaşdığın,
Hər gün seyr elədiyin, həsəd ilə baxdığın,
Gözəl də, gözəllik də sənə adi görünür,
Möhtəşəm tikililər inan sadə görünür.
Amma elə ki, çıxıb başqa yerə gedirsən,
Müvəqqəti olaraq buranı tərk edirsən,
Gedib gəzdiyin yeri seyr edirsən, görürsən,
Bir müddət oralarda qalıb, ömür sürürsən,
Onda anlayırsan ki, Naxçıvan tək bir diyar,
Dünyanı dolaşsan da təkcə Naxçıvanda var.
Bir tərəfdən tarixi abidələr ucalır,
Bir yanda uca dağlar düşmənlərdən bac alır.
Təbii gözəlliyi məftun edir adamı,
Belə səliqə-səhmana heyrət eyləyir hamı.

* * *

Hələ mən tarix yazan bir ömür sürməmişəm,
Naxçıvanın əvvəlki halını görməmişəm.
Amma ömrünü sürmüş insanlar danışır ki,

Naxçıvan son illərdə tamam dəyişib sanki.
Bir zamanlar küçələr toz-torpağın içində,
Nə səliqə, nə səhman? Hər tərəf bir biçimdə.
Tinlərdə, dalanlarda hər cür tikili varmış,
Avtomobil yolları indikindən çox darmış.
On il bundan əvvəllə indiki Naxçıvanı,
Yan-yana qoysaydılar tanımazdın heç yanı.
İndi baxırsan hər yan adama gəl-gəl deyir,
Yaşıllıqlar nəğmədi, güllər, çiçəklər şeir.
Bu cür gözəl sözləri eşidəndə, duyanda,
Sevincin aşıb-daşır, dərk edirsən bir anda,
Bu dövrdə yaşamaq bizim səadətimiz,
Hər şey bizlər üçündür... Qurub yaradanlar, siz,
Nə böyük insansınız, məramınız müqəddəs,
İçimdən bir səs gəlir, bəs nə deyir həmin səs?
Deyir ki, öz yurdunu sevən o insanları,
Öz ali məqamına çatdırır ulu Tanrı.
Bu yerdə gözlərimə dəyir Gəmi qayası,
Daşlar dinir, gör nələr deyir Gəmi qayası...
-Mən tarixdən sizlərə qalan bir nişanəyəm,
Danışım, bilməyənlər bilsin əslində nəyəm.
Mən bu ulu torpağın qədimliyinə sübut,
Nuh məndə nicat tapdı, məndə pozuldu sükut.
Görənlər yaxşı bilir, hər daşım tarix dolu,
Yazılarım oxunsa açılar tarix yolu.
İlk insan məskəniyəm, ilkin yaşayış yeri,
Bu yerdə yada düşür, Hüseyn Əzimin şeiri.
“Səndə tarixlərin çox nişanı var,
Hər daşın üstündə ox nişanı var”

* * *

Tarixi gəzə-gəzə gəldim çıxdım Gilana.
Bu xaraba yurd yeri çox söz deyir insana.
Şəhər mədəniyyəti dağılıb yox olsa da,
Tarixdən bəhs eləyir hər daş parçası burda.
Əzəmətlə ucalan Möminə-Xatınım var,
Tarixdən miras qalan qızılım-altunum var.
Möhtəşəm abidələr Əcəmi dühasıyla,
Kərpic-kərpic ucalıb, belə çatıb hasilə.
Atabəylər tək güclü dövlətin xatirəsi-
Bu gün bizə əmanət onun hər bir hissəsi.
Tariximdən söz açsam qorxuram söz yetməyə,
Elə insan varmı ki, görə, heyrət etməyə?!
Qarabağlar, Gülüstan, Oğlanqala, Sədərək,
Danışmaqla olmaz ki, gözlərlə görmək gərək.
Hələ Batabat kimi təbiət mənzərəsi,
Fərhad evi, Əlincə, Haçadağ möcüzəsi.
Mən nədən deyəcəkdim, gedib haraya çıxdım,
Hələ Əshabi-Kəhfdən heyrətlə danışacaqdım.
Bura sirli mağara, bura müqəddəs ocaq,
Burda da duaları qəbul edir uca Haqq.

* * *

Tarix hər gün yazılır, bu gün də yazılacaq,
Gələcək nəsillər də bu günü oxuyacaq.
Biləcəklər bu günün yüksəliş mənzərəsin,
Eşidəcəklər onun quruculuq nəğməsin.
Dar yollar genişləndi, küçələr işıqlandı,
Gün keçdi, həftə aşdı, ay ötdü, il dolandı.
Gəlib görənlər donub yerlərində qaldılar,

Belə gözəl diyara vallah heyran oldular.
Baxdılar ki, bir yanda ən müasir binalar,
Sağda tarixi bina, solda yeni bina var.
Tarixlə müasirlik vəhdət təşkil eləyir,
Parklar və xiyabanlar baxana, -buyur, -deyir.
Gözəl olan hər şeyi istədim sadalayam,
Bir-bir adını çəkəm, oturub bir-bir sayam,
Düşündüm ki, nə vaxtım yetəcək edəm bunu,
Nə də ki, saymaq ilə gəlib çatacaq sonu.
İçimdən bir səs gəldi, -Sözün qüvvəti ilə
Qoy həmin tikililər bir-bir gəlsinlər dilə.
Belə ki, ilk olaraq xəyalən kəndə getdim,
Ucqar, sərhəd kəndləri dolaşdım və seyr etdim.
Gördüm Havuş, Külüsü, Şahtaxtını, Kotamı,
Yaraşıqlı məktəblər heyran edir adamı.
Hər cür şərait ilə təmin olan məktəblər,
Bir deyil, iki deyil, yüzdülər, yüz birdilər.
Qədim Naxçıvanımda bir ildə tikilənlər,
Heç bir yerdə tikilmir, hiss olunmurmu məgər?
Hər il on, on beş kənddə təzə məktəb açılır,
Kənddəki uşaqların üzündən nur saçılır.
Parklar da yaradılır Naxçıvan kəndlərində,
Simasını dəyişir kəndlərin hər biri də.
Burda kiçik kəndlərdə böyük uğurlar gördük,
Söz yüklü atımızı kənddən şəhərə sürdük.

* * *

Artıq görə bilmirik o nimdaş binaları,
Qısa vaxtda kim belə dəyişib buraları?
Bir zaman Şərur belə görkəmdə deyildi ki,

Əvvəllər buraları görənlər deyirdi ki,
Bumu Dədə Qorquddan bizə əmanət məkan,
Yoxmu burda səliqə, hanı burdakı səhman?
Ulular bizə bu cür yurd qoyub getməzdilər,
Axı onlar hər yeri dolaşdılar, gəzdilər,
Ən gözəl, ən ecazkar yerdə oba salıblar,
Əsrlərlə bu yerdə yaşayıblar, qalıblar.
Amma indi görsəniz Şərurun hər qarışı,
Səliqəylə səhmanın gözəlliklə yarışı.
İndi dəyişilibdi Ordubad da, Culfa da,
Bir günlük qonaq oldum, gəzdim, qaldım
Culfada.
Qurub yaradan əllər sığal çəkib bura da,
Gələcək nəsillər də gərək bu cür yarada.
Və qoruyub saxlaya yaradılan əsəri,
Daha da gözəlləşə bu torpağın səhəri.
Gəzsən bağlar diyarı Ordubad kəndlərini,
Abad, gözəl görkəmdə görərsən hər birini.
Qədim diyar günbəgün addımlayır irəli,
Məftun oldum burdakı gözəlliyi görəli.
Bu anda gözlərimdə canlandı Sədərəyim-
Sərhədimdəki qalam, bükülməyən biləyim.
Düşmən ilə üz-üzə bu oba mərd dayanıb,
Dağları, qayaları məğrur və sərt dayanıb.
Amma yenə durmayır, -qururlar, yaradırlar,
Bu yurdun oğulları mərdlik adı alıblar,
Heydərabad adında qəsəbə də salıblar.
Baxırsan göz oxşayır, gülürsən gül qoxuyur,
Sanki torpağın üstə güldən naxış toxuyur.

Qəlbim yenə durmadı, məhəbbət ilə dindi,
Güllələr düşən yerdə güllər bitibdi indi.
Bir də Şahbuzu görsən, dilinə nələr gələr,
Küçələr, yollar... -hər yan üzünə gülər gələr.
Burda təbiət ilə vəhdətdə insan əli,
Bir möcüzədi sanki yaradanın əməli.
İnana bilmirsən ki, bir yolun sağ-solunda,
Baxıb doymayacaqsan həmin yolun sonunda.
Babək torpağını da gəzmək keçdi könlümdən,
Sanmayın ki, gəzməklə günlər getdi ömrümdən.
Yox, yox, gəzib gördükcə hər yanda gözəlliyi,
Bir-bir hopur yaddaşa hər yerin özəlliyi.
Xalqın qəhrəmanının adın daşıyan bu yer,
Gözəllərdən gözəlmiş, bax, gör, vurul, könül ver.
Mən də könlümü verdim, Babəkə aşiq oldum,
Söz deyib şair oldum, söz qoşub aşıq oldum.
Soyu qədimdən qədim bir nəsilin adını,
Daşıyan Kəngərlini-kəngərlilər yurdunu,
Yaman dəyişən gördüm, başqa donda hər səhər,
Heç də heyrət etməyin bir gün olacaq şəhər.
Gəlib görənlər bilir, buralar çöllük idi,
Hər tərəf kələ-kötür, dərə idi, dik idi.
Bəs kimlər dəyişdirir indi bu boz torpağı,
Niyə gözə görünmür əvvəlki toz-torpağı.
Qısa vaxtda bu qədər binalar tikilirsə,
Yolların kənarında ağaclar əkilirsə,
Bunlar kimlər üçündür duyub düşünmək gərək,
Bizlər üçün deyilmi, bu gözəllik, bu bəzək?!

* * *

Yenidən üz tuturam Naxçıvan şəhərinə,
Söz qoşmaq istəyirəm onun hər səhərinə.
Gecələri çilçıraq, gündüzləri işıqlı,
Hər qarış üzə gülür, hər tərəf yaraşıqlı.
Bir ildə dəyişilir hər tin, hər döngə, dalan,
Gələcək nəsillərə əmanət kimi qalan
Bu şəhəri hamımız gəlin təmiz saxlayaq,
Naxçıvan anamızdır, doğma, əziz saxlayaq.
Bir yanda elm ocağı-universitet şəhərciyi,
Görsən heyran olarsan indi hərbi liseyi.
Səhiyyə ocaqları yeniləşir gün-gündən,
Necə vurulmayasan durub baxdıqca gendən.
İdman Kompleksi və Üzgüçülük Mərkəzi,
Sanki özünə çəkir ordan keçən hər kəsi.
Bu şəhəri doyunca başdan-başa gəzsəniz,
Bir də Heydər Əliyev məktəbini görsəniz,
Xalqın diliylə desək əlin üzündə qalar,
Bütün bu gördüklərin tikilən hər nə ki, var,
Gözəlliyə vurulan insanların sovqatı,
Pozularmı bu yerdə bir nəfərin ovqatı!?
Könlün istəyən kimi yazmaq olmur söz ilə,
Gərək gəzib görəsən, seyr edəsən göz ilə.
Necə xoşbəxt insanıq Naxçıvanda doğulduq,
Bu torpağın suyundan, havasından yoğrulduq.
Gözəlliklər dindirdi sözlər qoşdum adına,
Müzəffər Nəsirlinin şeiri yetdi dadıma:

"Yurdumun şərəfi, böyük şöhrəti,
Düşübdür dillərə xeyli zamandır.
Söyləyir yurduma gələn qonaqlar,

Culfa Rayon Mərkəzi Xəstəxanası

Duzdağ Fizioterapiya Mərkəzi

Duzdağ Fizioterapiya Mərkəzinin yeraltı şöbəsi

Şərur şəhərində “Bahar” kinoteatrı

Doğrudan bu torpaq Nəqşi-cahandır”.

PUBLİSİSTİKA

Hüseyn İbrahimov

BAHAR

(oçerk)

İlin ən gözəl fəsli bahardır. Bahar gələndə təbiət gəlin kimi bəzənir, dağların döşü yamyaşıl məxmərdən don geyir, qarlı-buzlu yamaclardan sızıb birləşən dağ suları axdıqca qüvvətlənir, dərələrdən keçib coşqun çaylara qovuşur. Hər şeyə-canlıya da, cansıza da bir həyat nəfəsi gəlir.

...Bəli, səfalı kəndlərdən biri olan Aralığa yenə bahar gəlmişdir, özü də allı-güllü bahar! Belə bahar günündə cavan poçtalyon kəndin küçələri ilə qaçır və fərəhlə çığırırdı:

-Təzə xəbər, təzə xəbər!... Abdulla dayı qəhrəman olub...

Bu xəbəri ilk dəfə balaca həyətində göyərti kərdilərini sahmana salan Xədicə xala eşitdi, fikrə getdi: "Abdulla qəhrəman olub... "Axı, onun əri Məhərrəm kişinin də belə bir arzusu var idi. Ancaq onun arzusunu müharibə ürəyində qoydu. Məhərrəm getdi, ancaq qayıtmadı...

Xədicə xala təzə çiçəkləyən ərik ağaclarının altından keçib kənd yoluna çıxdı, poçtalyonu əylədi:

-Dayan, oğul,-dedi: -O qəzetdən birini bəri ver görüm.

-Yoxsa sən də qəhrəman olmaq istəyirsən, Xədicə xala?- deyə poçtolyon zarafata keçdi.

Xədicə arvad başını qaldırıb poçtalyonu diqqətlə süzdü.

-Özüm olmaram, uşaqlarım ki olar! -deyə ötkəm səslə cavab verdi.

-Qəhrəman adını arvadlara, uşaqlara vermirlər.

-Az danış, diluzunluq eləmə, qəzeti verdin, get!

Poçtalyon daha heç nə demədi. Ancaq fikirləşdi: "Ay Xədicə xala, hanı sənin elə uşağın ki, Abdulla dayıya oxşasın? Bir qızın var, o da çəlimsizin biri... Yel əsəndə gərək cibinə daş doldura ki..."

Xədicə arvad qəzeti o tərəf-bu tərəfə çevirə-çevirə həyətə qayıtdı, qızını harayladı:

-Qızım, Bahar, bir bəri gəl, bunu oxu görüm, deyirlər Abdulla qəhrəman olub.

Poçtalyon dediyi kimi çəlimsiz və qarayanız, ancaq diribaş bir qız olan Bahar, kiçik pəncərələri gündoğana baxan balaca komadan çıxdı, əlindəki mis qazanı qapının ağzında yerə qoydu, göyərti ləklərinin içərisindən keçib anasının yanına gəldi, qəzeti alıb oxudu: "Yüksək pambıq məhsulu götürdüyünə görə..."

Poçtalyon doğru deyirmiş, hökumət kolxozun adlı-sanlı pambıqçısı Abdulla Məmmədovu rekord məhsul götürdüyünə görə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək bir ada layiq görmüşdü...

Baharı fikir götürdü. Axı, o, kitablarda oxumuşdu ki, qəhrəmanlar cəbhədə olur, düşmənlərə qarşı vuruşmalarda igidlik göstərirlər. Bəs Abdulla kişi harada igidlik göstərib ki, ona qəhrəman adı

veriblər?

Bahar ürəyindən keçəni anasına dedi:

-Ana, Abdulla dayı hansı cəbhədə olub ki?..

Xədicə arvad qızının fikrini başa düşdü, qayğılı gözlərini bir müddət üfüqlərə zillədi. Kim bilir, bəlkə bu vaxt ananın ürəyindən keçirdi ki: "Kaş Məhərrəm də sağ olaydı, qəhrəman adı alaydı..."

Xədicə arvad dərindən köks ötürdü, Baharın saçlarını oxşadı.

-Qızım, -dedi, -igidlik, qəhrəmanlıq təkcə vuruşmalarda olmur, əmək cəbhəsində də igidlik, qoçaqlıq göstərib ad çıxarmaq, qəhrəman olmaq olar. Bəs eşitməmisən ki, deyərlər əmək, şan-şöhrət işidir... Sədrimiz o günlərdə deyirdi ki, Bəstiyə iki dəfə qəhrəman adı veriblər. İndi şairlər ona söz qoşur, aşıqlar onun şəninə saz çalırlar. -O, bir an dayandı, sonra səsinin ahəngini dəyişib əlavə etdi: -Atan deyərdi ki, insanı zəhmət qədər ucaldan, onu şana-şöhrətə çatdıran ikinci bir qüvvə yoxdur!

Həmin gün Bahar ev işlərini görsə də, anasının tapşırıqlarına əməl etsə də, qəhrəmanlar haqqında düşündü. Gah Abdulla kişini, gah da Bəstini yadına saldı, boş vaxtı olan kimi dərs kitabını açıb, Bəstinin şəklinə onun yoğun biləklərinə, ətli çiyinlərinə, enli sifətinə tamaşa etdi. Hətta axşam yatağa girəndə belə, uzun zaman oyaq qaldı. Gah həyətlərinin yanından axan Arpaçayın sularının səsinə qulaq asdı, gah İsaq-Musaq quşunun yeknəsək nəğməsini dinlədi, anasının sözlərini

xatırlayıb xeyli düşündü... Kəndin Bəstiyə oxşar qadınlarını bir-bir yadına saldı. Birdən ürəyindən qəribə hisslər keçdi: "Görəsən, mən də Bəsti xala kimi qəhrəman ola bilərəmmi?.."

Bahar uzun müddət yerində qurcalandı, özünü gah çayın sahilində, gah traktorun yanında, gah da pambıq tarlasında gördü.

Ancaq yaxşı demişlər: "Yuxu elə bir güclü şeydir ki, hamı onun qarşısında baş əyib təslim olur." Bahar belə gecənin əsrarəngiz aləmində şirin arzularından nə vaxt ayrılıb yuxuya getdiyini özü də bilmədi...

Baharın ilk addımı uğursuz oldu. Kolxoz idarə heyətinin üzvləri ona etibar edib, xahişini yerinə yetirsələr də, təbiət cavan manqabaşçısına amansızlıq etdi. "Sarılar" kövşənində əkilən pambıq kolları torpaqdan yenicə baş qaldırdıqları vaxt Aralığa dolu düşdü. Günün günorta çağı kollar şil-küt edildi. Sel suları sahənin bir hissəsini yuyub apardı. Baharın və onun manqa üzvlərinin zəhməti hədər getdi...

Axşam kolxozun idarə heyətinin iclasında dolu düşən pambıq sahələrinin sökülüb, bostan-tərəvəz bitkiləri əkilməsi haqqında məsələ müzakirə edilərkən ilk etiraz edən Bahar özü oldu.

-Xahiş edirəm, -dedi, -"Sarılar"ın adını siyahınızdan çıxarasınız... Mən manqa üzvləri ilə məsləhətləşmişəm. Biz həmin yerdə yenidən pambıq əkəcəyik, həm də...

Aqronom onun sözünü kəsdi:

-Qızım, indi pambıq əkmək bilirsən nə deməkdir?

Bahar suala sualla cavab verdi:

-Nə deməkdir?

-O deməkdir ki, yəni aqronomiya elmi, sən bir heç!

-Əksinə, bəlkə bizim təcrübəmiz aqronomiya elminə təzə bir şey gətirdi.

-Bahar dönüb sədrə, Abdulla kişiyə baxdı. Sədr başını mənalı-mənalı silkələdi. Görünür, Baharın təklifi sədrin ağlına batmışdı:

-Deyəsən axı, Bahar haqlıdır... Gərək gec olmaya.

-May ayında?!-deyə aqronom təəccüb etdi.

-Bəli, may ayında, -deyə Bahar dilləndi, -Miçurin deyir ki, biz təbiətdən mərhəmət gözləyə bilmərik...

Aqronom əsəbiləşdi:

-Qızım, sən o sözləri dünən oxumusansa mən beş ildir eşidirəm. Kitab ayrı, həyat ayrı. Burada deyiblər ki, "Bu ilki sərçə bildirkinə civ-civ öyrədir." Mən bir aqronom kimi buna etiraz edirəm və indidən deyirəm ki, əgər sabah məhsul olmasa, çəkilən xərc batsa, məsuliyyəti mən daşımayacağam.

Söhbət məsuliyyətdən gedəndə aralığa ani bir sükut çökdü. Bahar da fikrə getdi. Sonra başını qaldırıb idarə heyəti üzvlərini bir-bir nəzərdən keçirdi. Nəzərləri sədrə, qəhrəman Abdulla dayıya sataşdı. Onların hər ikisinin sifətində bir təbəssüm var idi. Bu, Baharı cürətləndirdi:

-Yoldaş sədr,- dedi,- iş ki, məsuliyyətə keçdi, mən manqamızın bütün üzvləri adından deyirəm: biz aqronomsuz işləyəcəyik! Bizim aqronomumuz da, məsləhətçimiz də kitablar olacaq. Bəstilərin təcrübəsi olacaq! Məsuliyyəti isə biz özümüz daşıyacağıq... Biz sabahdan pambıq sahələrinə yenidən çiyid səpəcəyik...

Hələ dünən manqa başçısı təyin olunan çəlimsiz qızın cürəti sədrin - kəndin qəhrəmanının xoşuna gəldi. Hətta, Abdulla kişi ayağa qalxıb öz cavan həmkarının əlini sıxdı.

-Sənə kömək etmək isə Abdulla dayının boynuna, - dedi. İdarə heyəti üzvlərinin yığıncağı qurtaranda otağı ilk tərk edən aqronom oldu...

Bahar isə sözünün üstündə möhkəm durdu. O, rəfiqələri ilə birlikdə gecəni gündüzə qatıb pambıq tarlasının başına dolandı, hər bir kola nəzarət etdi, nəvaziş göstərdi. Axşamlar kitabları vərəqlədi, gündüzlər Abdulla kişi ilə, manqasının pambıqçıları ilə məsləhətləşdi.

Çəkilən zəhmət hədər getmədi. Həmin il Baharın manqası təbiətin amansızlığına baxmayaraq hər hektardan 35 sentner məhsul götürdü. O, möhkəm iradəsinə bel bağlayaraq ilin əvvəlində atdığı uğursuz addımı ilin sonuna düzəltdi. Baharın adı təkcə kolxozlarında deyil, rayonda, hətta Muxtar Respublikada çəkildi. Ona Respublikanın "Pambıq ustası" adı verildi.

Bəli, Baharın adı yavaş-yavaş dildə-ağızda gə-

zir, qəzetlərdə görünürdü. Onu indi məşğul edən başqa fikir idi: "Görəsən, mən qəhrəmanla yarışa girə bilərəmmi?.."

Bəli, Bahar qəhrəmanla qəhrəman kimi yarışdı. Yola saldığı illərin hər biri ona, onun başçılıq etdiyi manqaya böyük şöhrət gətirdi. O, hər il dövlətə on tonlarla "ağ qızıl" satdı...

Bizim xalq qədirbilən xalqdır. O, heç kimin zəhmətini yerə vurmaz, əksinə bahadırlarının şənini, şöhrətini artırar, ona böyük etimad göstərər.

Şərur rayonunun zəhmətkeşləri də Bahara etimad göstərdilər. 1958-ci ildə SSRİ Ali Sovetinə seçkilər keçiriləndə rayonun zəhmətkeşləri onun adını çəkdilər. Bahar xalqın elçisi kimi Moskavaya yola düşdü. O, burada təkcə Kremli, onun qədim abidələrini, çil-çıraqlı salonlarını deyil, ölkənin adlı-sanlı adamlarını da gördü, yüksək məhsul ustaları ilə görüşdü.

Onun manqası 1958-ci ildə hər hektardan 38, 1959-cu ildə 47, 1960-cı ildə isə 60 sentner məhsul götürdü.

Baharın ildən-ilə artırdığı məhsul onun şan-şöhrətini də artırdı.

Adı dillərə düşdü...

Şairlər onun şəninə söz qoşdular, bəstəkarlar isə mahnı bəstələdilər:

Günəşlə bir qalxıb bir oyanır
Bu azad ellərin qəhrəmanı...

Elə bir adam tapmaq olmaz ki, onun həya-

tında şirin xatirələrlə dolu günlər olmasın. Baharın da həyatı belə gözəl xatirələrlə zəngindir. Lakin o, bu günlərdən birini heç vaxt unudan deyil. Bu onun Sov. İKP-nin tarixi XXII qurultayında iştirak etdiyi gün idi. Doğrudur. Bahar Moskvanı çox görmüşdü. Kremlin çil-çıraqlı sarayında keçirilən sessiyalarda dəfələrlə iştrak etmişdi. Lakin bu dəfə o, Spassk darvazasından içəri girəndə, özünü tamamilə başqa əhval-ruhiyyədə gördü. Qurultaylar sarayının geniş salonunda partiyanın görkəmli xadimləri ilə yanaşı əyləşəndə ona göstərilən etimada az qaldı ki, özü də inanmasın. O, bilirdi ki, əvvəllər bura xalqın elçisi kimi gəlirdisə, indi böyük inqilabi ənənələri olan Azərbaycan kommunistlərinin nümayəndəsi kimi gəlmişdir.

Bahar hiss edirdi ki, indiyədək xalq qarşısında bir elçi kimi məsuliyyət daşıyırdısa, bundan sonra kommunist kimi də məsuliyyət daşıyacaqdır. Bahar bu dəfə belə bir əhval-ruhiyyə ilə doğma kəndinə qayıtdı, həmyerlilərini başına yığıb gördüklərini danışdı, qarşıda duran vəzifələrdən bəhs etdi. Bahar qarşıdakı təsərrüfat ilində bütün rayonda birinci dəfə olaraq pambığı kvadrat-yuva üsulu ilə əkəcəyini, hər hektardan 60 sentner məhsul götürəcəyini bildirdi.

Əlbəttə, Baharın vədi böyük qəhrəmanlıq idi. Buna baxmayaraq heç kim təəccüb etmədi. Çünki o, əvvəlki illərdə bir-birinin ardınca hər hektardan yüksək məhsul götürmüşdü.

Bahar manqa üzvləri ilə əl-ələ gecə-gündüz

bilmədən işlədi, vədini yerinə yetirdi.. 16 hektar sahədən 960 sentner pambıq götürdü. Hər hektardan 60 sentner, hər hektardan 400 pud!..Bəli, Baharın ən böyük arzusu yerinə yetmişdi. O, vaxtı ilə həsəd apardığı Abdulla kişini də ötüb keçmişdi. Qəhrəmanları ötüb keçmək isə əsl qəhrəmanlıq idi. Partiya və hökümət də Baharın 1960-cı ildəki işinə əsl qəhrəmanlıq kimi qiymət verdilər. Onu 8 Mart Qadınlar gününün 50 illiyi münasibətilə Moskvaya dəvət etdilər. Bahar ölkənin bir qrup qadını ilə birlikdə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Bahar bu dəfə fikrə getdi: "Görəsən,mən bu adı doğrulda bilərəmmi?.."

Elə bil ürəyindən səs gəlirdi ki," doğruldacaqsan, Bahar doğruldacaqsan! O kəslər ki, əməyə bel bağlayırlar, onlar el-oba içində heç vaxt xar olmurlar! Heç nədən ehtiyat etmə,axı sən zəhmətkeşsən!"

Bəli, Bahar 15 ildir ki,zəhməti özünə ən böyük sirdaş bilib ondan qüvvət alıb, bərk ayaqda ona güvənib. Əmək isə Bahara həyan olub, əlindən tutub, onun adını şöhrətləndirib, babası Talıb kişinin, atası Məhərrəmin ağıllarına belə gətirə bilmədikləri bir yüksəkliyə qaldırmışdır...

Əgər yolunuz muxtar respublikamızın siyasi maarif evinə düşsə burada gözəl bir stendə rast gələrsiniz. Stend belə adlanır: "Bahar Talıbovanın ardıcılları."

Axı, Bahar M.Hüseyinzadə adına kolxozda

yüksək məhsul manqasına başçılıq etdiyi illər ərzində Naxçıvan Muxtar Respublikasında onlarla pambıq ustası yetişdirmiş,yüzlərlə "ağ qızıl" becərənlərin müəllimi olmuşdur. Kolxozun sədri aqronom Aydın Novruzov çox haqlı olaraq Baharın manqasını kolxoz üçün manqabaşçıları hazırlayan bir növ məktəb adlandıraraq deyir:

-İndi kolxozumuzda yüksək məhsul manqalarına başçılıq edən Telli Seyidova, Sünbül Qəhrəmanova, Gülsüm Babayeva vaxtı ilə Bahar bacının manqasında işləmişlər. Onlar yüksək məhsul götürməyin yollarını tamam öyrəndikdən sonra Bahar bacı onları, necə deyərlər, irəli çəkməyi məsləhət bilmiş, kolxozumuzun idarə heyəti isə onun məsləhətinə qulaq asmışdır. Bu manqaların başçıları neçə illərdir öz ustalarının yolu ilə gedərək bol məhsul yetişdirirdilər. Telli bu il hər hektardan 40, Sümbül 35, Gülsüm isə 33 sentner pambıq götürməyi öhdəsinə almışdır...

Baharın ardıcılları təkcə M.Hüseynzadə adına kolxozda deyil, Muxtar Respublikanın pambıq əkən bütün kolxozlarında vardır.

İndi muxtar Respublikada Baharın ardıcılları ildən-ilə artır, pambıq tarlalarında onun kimi işləyənlərin sayı ona, yüzə qalxır, necə deyərlər böyük "Baharçılar" ordusu yaranır.

"- Bahar bacı , xahiş edirəm vaxtınız olanda bizə gələsiniz. Yoldaşım aramızda olan adi bir incikliyə görə məndən ayrılmaq istəyir. Bizim ailənin da-

ğılmasına yol verməyin, bir xalq elçisi kimi mənə, uşaqlarıma kömək edin...”

Bu məktubu qonşu Siyaqut kəndindəki Lenin adına kolxozun üzvü Laləzar Hüseynova yazmışdır.

Məktubu Bahara axşam çağı işdən yenicə gəldiyi vaxtda verdilər. Bahar fikrə getdi... Anası onu dalğın görcək yanına gəldi:

-Qızım, nə olmuşdur?

Bahar anasını məktubda yazılanlarla tanış etdi. Xədicə xalanın da qaşları düyünləndi. Axı, ərini erkən itirən ana ailənin başsız qalmasının nə demək olduğunu yaxşı bilirdi.

-Get, qızım, yəqinimdir ki, oğlan səni eşidər,- deyə Xədicə xala başını mənalı-mənalı silkələdi.

-Mütləq getməliyəm, ana. - Bahar bir stəkan çay içib ayağa qalxdı, qardaşını çağırıb “Moskviç”i gətirməsini tapşırdı. Bir azdan sonra Baharın maşını Aralıqdan çıxıb qonşu Siyaqut kəndinə tərəf yol aldı. Bahar birbaşa Laləzargilin evinə gəldi. Kəndin ağsaqqallarından bir neçəsini çağırıb məsləhətləşdi, sonra kolxozçu Əsədullanı tapdırdı, xeyli məzəmmət etdi:

-Mən bir bacı kimi məsləhət bilirəm ki, ailənin yanına qayıdasan... quş, quşdur o da özü tikdiyi yuvanı dağıtmır. Sənin gül kimi uşaqların, gözəl-göyçək ömür yoldaşın var. Adam da adi bir inciklik üstə ailəsindən üz döndərərmi?

Bahar dedi, Əsədulla qulaq asdı... Xalq elçisinin məzəmməti, nəsihətləri hədər getmədi, Əsədulla

həmin gün öz ailəsinə qayıtdı.

Bahar kolxozçu Çiçək Əliyeva ilə fəhlə Məmməd Əliyevi də beləcə barışdırmış, Mehralı kişinin ordu sıralarından qayıdan oğlu Əliyə beləcə qayğı göstərib, onu işə düzəltmişdi...

Bahar ata yurdundan köçməmişdir. O, Məhərrəm kişinin köhnə komasının yanında Şahtaxtının ağ kubik daşından ikimərtəbəli, üstü şiferli gözəl imarət saldırmışdır. Pəncərələri kolxozun yaşıl taxıl zəmilərinə baxan, qabağında Arpaçayı qıcıltı ilə axıb gedən bu binanın qapıları təkcə Aralığın deyil, bütün qonşu kəndlərin böyüyündən tutmuş kiçiyinə qədər hamının üzünə açıqdır. Mübaliğəsiz demək olar ki, kim bir çətinliyə düşsə Baharı tapar, dərdini ona danışar. Bahar hamının əlindən yapışar, heç kimə köməyini əsirgəməz...

Bahar yenə gəlmişdir, allı-güllü bahar...

Sahələrə baxanda dərhal hiss olunur ki, buranın hər qarışında usta bir əkinçinin əli gəzmiş, torpaqdan təzəcə baş qaldıran hər bir kola kifayət qədər qayğı göstərilmişdir.

Bahar deyir:

-Plan dövlət tapşırığıdır, öhdəçlik isə vətənpərvərlik nümunəsidir. Planı yerinə yetirmək bizim vəzifəmizdir. Bəs öhdəçiliyimiz? Onu yerinə yetirmək isə bizim vətəndaşlıq borcumuzdur. Mən də, mənim rəfiqələrim Əzət də, Səkinə də, Minayə də, Tovuz da, Güllər də, Leyla da, suçumuz Bəbir də, traktorçumuz Meydan da istəyirik hamı bilsin ki,

biz hər il olduğu kimi, bu il də öz vətəndaşlıq borcumuzu ləyaqətlə yerinə yetirəcək, ölkəyə vəd etdiyimiz qədər "ağ qızıl" satacağıq!

İnsan ömrünün bütün səadətini əməkdə görən, elinin-obasının təsibini çəkən bu qeyrətli kəndli qadının ürəkdən gələn sözlərini eşidərək onun əlini bərk-bərk sıxmaq və demək istəyirsən:

-Sənin və rəfiqələrinin bu nəcib, xeyirxah işinə min alqış, Bahar bacı! Sizə babalarımızın müqəddəs, insanın cövhəri adlandırdıqları halal zəhmət yollarında uğurlar olsun, uğurlar.

1963-cü il

NƏSR

Həmid Arzulu

GÜNƏŞ DƏ BİZƏ YAXINDIR

Oxudum. Təhsil aldım, ali təhsil. Naxçıvana qayıtdım. Müəllim işləməyə başladım- alman dili müəllimi. Əvvələr şagird kimi girdiyim sinfə indi müəllim kimi daxil oldum. Mənə dərs demiş müəllimlər həmkarım oldu. Salam verdim, salam aldım. Lakin arzum gözümdə qaldı. Bircə il işlədim, çəmi bircə dərs ili.Müharibə qopdu. Əsgər şineli geydim. Cəbhəyə getdim. Sən-gərlər... kəşfiyyat... Nəhayət qələbə! İllərlə getdiyimiz yolu bir neçə günə qayıtdıq. Məni Bakıda saxladılar. Tərcüməçi oldum.

Bir gün Bakıya, Qərbi Almaniyadan, qədim abidələri öyrənən bir dəstə adam gəldi. Ensiklopediya üçün. Məni onlara təqdim etdilər. Biz mehmanxanada görüşdük. Nəzərlərimi o saat qrupun başçısı professor Frost Ştayn cəlb etdi. Hündür boyu, ətli ovurdaları vardı. Baxışları narahat idi, kəsgin idi.

Üz-gözündən təkəbbür, lovğalıq yağırdı. Təqdim olunarkən o, deyəsən, narazı qaldı. Yoldaşına tərəf əyilib başını buladı, ona nəsə pıçıldadı:

-Yoxsa narazısınız, cənab professor?- deyə mən ehtiramla soruşdum.

-Bəli, bəli,-deyə o soyuqqanlılıqla cavab verdi.

-Siz adi dolmedçersiniz, yəni tərcüməçisiniz? Bilmirəm, bizim peşə ilə tanışlığınız varmı?

-Sizi nə maraqlandırır?

-Maraqlanacağımıza dəqiq cavab almaq. Axı biz ensiklopediya. . .

-Başa düşürəm,- mən onun sözünü kəsdim. -Bizdə belə söhbətlər zamanı "Cücəni payızda sayarlar" deyiblər, cənab.

Hamı gülümsədi. Professorun üzündəki istehza dəyişmədi.

O, sınayıcı tərzdə mənə baxdı:

-Elə isə təsəvvür edin ki, payızdır. - O, bu sözləri deyib, otağına keçdi. Əlində çamadan geri qayıtdı. -Cənab dolmedçer,-deyə sözünə davam etdi,-mənim atam da arxitektor olub. O, müharibədən əvvəl Şərqə səyahət etmişdi. SSRİ-də olmuşdu. Səyahətdən evə qayıdarkən Berlin vağzalında onun qiymətli məlumatlarla dolu çamadanı oğurlanır. Atamın elə vaqondaca ürəyi partlayır. Onun birillik səyahətindən yeganə nişanə-qoşa əl boyda saxsı parçası qalıb. Mən onu atamın paltosunun döş cibindən tapdım. Üzərində qəribə naxışları olan bu sənət incisinin vətəni zənnimcə Azərbaycan olmalıdır. Ondakı milli kalorit yalnız sizin xalqa məxsusdur. Deyirəm, bəlkə ya siz, ya da arxitektorlar ittifaqınız mənə bu barədə dəqiq məlumat verəsiniz.

O, çamadanından çıxartdığı ağ, zərif kağıza bükülmüş dörd bucaq saxsı parçasını mənə uzatdı. Naxışlı saxsını əlimə alarkən elə bil burnuma iy vurdu. -Yumurta sarısı ilə yoğrulmuş isti təndir kökəsinin iyi. Bu iy mənə nə qədər tanış idi! Xəyalım bir anlığa doğma Naxçıvana uçdu. Üşaqlığım, ilk gənç-

lik illərim yadıma düşdü.

Evimiz xan dikində idi. Qədim Möminə xatın məqbərəsinin düz yanında. Mən bu əzəmətli məqbərənin sərin kölgəsində oturub barmaqlarımı zərif sarı naxışlarda gəzdirə-gəzdirə şirin qarğıdalı, buğda kökəsi yeməyi xoşlardım. Anam kökənin üstünə hərdən yumurta sarısı vurardı. Onda kökə daha xoşagəlim, daha ləzzətli olardı. Sonralar mən məqbərənin kölgəsində oturarkən məqbərədən gələn iy yadıma anamın dadlı kökələrini salardı. Elə bil məqbərənin naxıçlarına təndir kökəsi ilə yumurta sarısının ətri hopmuşdur. Deyirlər ki, elə məqbərənin kərpicləri də yumurta sarısından yoğrulmuşdur. Nə deyim, bəlkə elə buna görə kərpiclərdən qalxan xoş ətri mən uşaqlıq xatirələrimlə bağlayırdım.

Xəyaldan ayrılıb diqqətlə professorun mənə verdiyi naxış saxsıya baxdım. Heyrətdən bağırmaq istədim. Mən yanılmamışdım. Yox yanılmamışdım.

-Naxçıvan. . . Bu, Naxçıvandır!- Sevinclə dilləndim.

Professor qulaqlarına inanmadı.

-Nə dediniz?

Naxışları tanıyırsınız?Bu ola bilməz!. . .

-Olar, cənab professor!

-Axı, siz bunu nədən tanıdınız?

-Ətrindən!. . .

-Neçə?!

-Ətrindən, cənab professor. Biz Vətən torpağını ətrindən tanıyırıq!

Deyəsən bu sözlərim onun qəlbindəki hansı hissəsə bərk toxundu. O, fikrə getdi. Ürəyi sıxılırmış kimi ağ nişastalı köynəyinin yaxasını açdı. Mən gülə-gülə:

-Yaxanızı açmayın, cənab professor- dedim,- payızdır. Soyuq dəyər.

Bu sözlərim ümumi gülüşə səbəb oldu. Frost Ştaynın avazmış üzündən xəfif bir qızartı keçdi.

Arxitektorlar ittifaqında sözlərini də təsdiq etdilər.

Bir neçə gün sonra biz qatarla Naxçıvana yola düşdük. Pəncərədən gözümü Vətən torpağının hər iki sahilini öpə-öpə, oxşaya-oxşaya axan xan Araza zilləmişdim. O tayda yol boyu uca dağlar karvan çəkib gedirdi. Bu dağlar susuzluqdan cadar-cadar olmuş dodaqlarının ayaqları altından qıvrıla-qıvrıla axıb gedən Araza dayayaraq, bütün çayı, sanki öz damarlarına sömürmək, içdikcə içmək istəyirdi. Günəşin odlu şüaları onun ildırımları doğramış qabarlı kürəyini amansızlıqla qovurur, buludlardan nicat diləmək üçün göylərə şişlənmiş daş qollarını yandırıb-yaxırdı. Qatar irəlilədikcə dağlar-dərələr, torpaq, hətta hava da tədriclə dəyişilir, gözəlləşirdi. Sərin meh asta-asta tərli sifətləri oxşadı. Xoş bir musiqi ürəklərə sevinc çilədi. Uzaqdan İlanlı dağın buludlu sinəsi, yaşıllıqlara qərq olmuş Qədim qala hasarları, Xan dikinin söyüdlü ətəyi Mömünə xatın məqbərəsinin vüqarlı başı görünürdü.

-Naxçıvan! Cənab professor, Naxçıvan!- Mən

ucadan dilləndim. Heyrətdən bədənimdə titrədici bir gizilti keçdi. Frost qalxıb yanıma gəldi.

-Baxın, -dedim. -Odur həmin abidə, Əcəmi dühası. Naxçıvan torpağının qədim rəmzi.

O, qara eynəyini çıxararaq gözlərini göstərdiyim səmtə zillədi. Aparatının qapağını açıb Naxçıvanın geniş panoramasının şəklini çəkdi.

Naxçıvan vağzalında bizi duz-çörəklə, gül-çiçəklə qarşıladılar. Qonaq evində yerimizi rahatlayıb Möminə xatın məqbərəsinin yanına getdik. Məqbərə turistləri valeh etdi. Professor məqbərəni dörd dolandı, naxışları diqqətlə nəzərdən keçirdi, qeydlər etdi, şəklini çəkdi. Mən isə məqbərənin tarixi haqqında ona məlumat toplayıb verdim. O, sevincini gizlədə bilməyib mənə minnətdarlıq etdi. Gözlərini məqbərənin göylərə baş vuran zirvəsinə zilləyərək:

- Doğrusu inanmazdım ki, Şərqdə qadına belə gözəl abidə yaradalar. Görünür, biz hələ də Şərqi tanımırıq.

Dinmədim, Frost öz sualına özü layiqli cavab vermişdi. O, məqbərəyə yaxınlaşdı. Barmaqlarını nəvazişlə uçuq naxışlarda gəzdirdi. Elə bil ki, bədənimdəki yaralara toxundular. Dözə bilmədim.

-Ox yerləridir, güllə yerləridir, cənab professor,- dedim.

Frost Ştayn başıyla sözlərimi təsdiq etdi. O, qram-qram, misqal-misqal qopub yerə tökülmüş zərif naxışları əlinə götürdü. Burnuna sarı apardı. Özü ilə gətirdiyi naxışlı saxsını da iylədi.

Gülümsəyib üzünü mənə sarı tutdu:

-Ətri də eynidir, -dedi. -Siz haqlı imişsiniz. Kaş bu sənət incisindən dünyanın xəbəri olaydı.

Geri qayıdarkən Frostun nəzərlərini məqbərənin yaxınlığında oynayan bir yığın uşaq cəlb etdi. Onlar çini qırıntılarının içinə kökə tikələri düzür, sonra ağızlarına qoyub marçamarçla yeyir, ucadan gülüşürdülər.

Mən uşaqlara baxıb vəcdə gələrək:

-Ah, uşaqlığım yadıma düşdü!Cənab professor, sizin necə?- dedim.

O ağzını büzdü:

-Mənim uşaqlığım belə acınacaqlı keçməmişdir,- dedi. -Bu tamam başqa aləmdir. Uzun müddət iqtisadi yoxsulluğun nəticəsidir. Aclıq insanların psixologiyasını da dəyişdirir, xalqı acgöz edir. Nəsilləri korlayır.

Professor üzümdəki etiraz alovlarını duyub məni danışmağa qoymadı.

-İnanmırsınız. Bir bura baxın. O, əlini cibinə saldı. Gözəl, rəngli kağızları olan bir ovuc konfet çıxardı.

-Uşaq, uşaq, bitte konfet.

O, bu sözləri deyib konfetləri uşaqlara tərəf uzatdı. Səslər birdən-birə kəsildi. Hamı dönüb diqqətlə professora və konfetlərə baxmağa başladı. Frost məndən öyrəndiyi bir neçə Azərbaycan sözünü yenə də təkrar etdi:

-Uşaq, oğlan, konfet, nim züs. - o ağzını

marçıldatdı.

Uşaqlar elə bil yerlərində donmuşdular. Həyəcan keçirirdim.

Görən bu "acgöz" nəsil konfetləri alacaqmı? Professorun əli göydən asılı qalmışdı. Heç kim yerindən tərpənmirdi.

Frost Ştayn yeni bir cəhd etdi. O, konfetləri uşaqların ayaqları altına yerə atdı. Birinin kağızını soyub öz ağzına qoydu. Şirin-şirin yeməyə başladı. Uşaqlar yerlərindən pıqqıldaşdılar. Birdən onların ən sıskası üzü-gözü toz-torpağa bulaşmış qaraşın oğlan ayağa qalxdı, tozlu qolu ilə burnunu silib iri addımlarla konfetlərə sarı gəldi. Frostun gözləri işıqlandı.

-Him, nim, bitte- deyə tez-tez təkrar etdi.

Oğlan dayanıb diqqətlə konfetlərə sarı baxmağa başladı. O, deyəsən nə haqdasa düşünür, müəyyən bir qərara gələ bilmirdi.

Birdən o, hərəkətə gəldi. Yalın ayağını aramla qaldırıb, dabanını ehmalca bir konfetin üstünə qoydu. Qollarını geniş açaraq bir dəfə dabanı üstə fırlandı. Konfet əzilib torpaqda xəstə kürəyinə salınmış banka yerinə bənzər dairəvi ləkəyə çevrildi. Birdənbirə mənə elə gəldi ki, Berlindəyəm. Əsgərlərimiz qələbədən vəcdə gələrək "Qaytağı"nı, "Ləzginka"nı, "Yabloçka"nı, "Katyuşa"nı oynayırlar. Onlar: "Qələbə!. . Qələbə!. . " deyib qollarını geniş açaraq fırlanır, sanki səmaya yüksəlmək, günəşi, kainatı qucaqlamaq istəyirlər.

Öz "fəlsəfə"sini sübuta yetirə bilmədiyini görən Frost Ştayn bərk dilxor olmuşdu. Uşagın bu hərəkəti ona güllə kimi dəymişdi.

Bu zaman gəlinciyinə dizi üstündə layla deyən ağ lentli qız nə sezdisə cəld ayağa qalxdı. Gəlib qınayıcı nəzərlərlə oğlanın düz gözlərinin içinə baxdı. Yerdən konfetləri bir-bir ovcuna yığıb, tozunu üfürdü. Gətirib nəzakətlə Frosta verdi. Qayıdarkən oğlanın qulağına nəsə pıçıldadı. Oğlan özünü itirdi. Qıpqırmızı qızardı. İrəli yeriyib bizim qarşımızda dayandı. Günahkar kimi başını aşağı salıb, burnunun altında mızıldandı.

-Bağışlayın, əmican, bilmədim ki, qonaqsınız, bilmədim.

Mən oğlanın sözlərini tərcümə etdim. Frostun pərt sifəti birdən-birə açıldı. Gülümsəyib oğlanın başını tumarladı:

-Qiyamət oğlansan, əhsən!- deyib onun kürəyinə vurdu.

Biz Şərur rayonundakı qədim abidələrlə tanış olandan sonra gəlib Culfa rayonuna getdik. Ekspedisiya burada bir neçə gün qalacaqdı. Professorla bir gün Əlincə qalasına qalxdıq. Qayıdarkən kəndlərin birində gecələməyi professora təklif etdim.

O, heyrətlə etiraz etdi.

-Siz nə danışırsınız?! Onlar bilsələr ki, almanam, özü də. . .

Ucadan güldüm.

-Gedək, - dedim, - heç nədən qorxmayın.

Professor razılıq verdi. Biz Xanağa kəndinə çatıb birinci evin darvaza qapısını döydük. Qapını 60-65 yaşlarında saçı-saqqalı agarmış başında buxara papağı olan bir kişi açdı.

-Əmi, qonaq istəmirsiniz? Yolçuyuq, gecələmək istəyirik.

-Buyurun, ay oğul, qonaq allah qonağıdır. Bu nə sözdü, ayıb deyilmi?

Qocanın dediklərini Frosta tərcümə etdim.

-Deyin ki, mən almanam.

Onun dediyini də qocaya söylədim.

-Almandır? Əşi yox ha?! Qoca bu sözləri deyib əlini professora uzatdı. Bizim yerlərə xoş gəlmisiniz, oğul! Buyurun, buyurun evə!

Biz evə keçdik. Elə qapının ağzındaca quruyub qaldıq. Birdən-birə, sanki qeyri-adi bir qüvvə nəzərlərimizi sehirlədi. Üstümüzə yenicə açılmış minbir rəngli bahar çiçəkləri səpələndi. Bu nə idi? Bizi belə təntənə ilə qarşılayan kim idi? Haraya düşmüşük? Yuxumu görürük?!

Stullar şaqqıldadı. Qoca nəsə dedi. Eşitmədim. Gözlərimi evin qarşı divarını boyaboy tutmuş, hələ toxunmaqda olan zərif naxışlı xalçadan çəkə bilmirdim. Bu ecazkar sənət əsərinin üzərində saysız-hesabsız gül-çiçəklərlə, xallı kəpənəklərlə əhatə olunmuş gözəl bir qız həkk edilmişdi. Qara, yoğun hörükləri sinəsindən keçib dizlərinə qədər uzanırdı. Bu qaynar baxışlı, açıq təbəssümlü azərbaycanlı qızın ovuclarından elə bil bahar çiçəkləri qaynayıb

daşırdı. O, qolac qollarını irəli uzadaraq, sanki bizə xoş gəldin edir, ayaqlarımızın altına əlvan çiçəklər səpmək istəyirdi. Professor gözəllikdən məst olmuşdu.

Qocanın səsi bizi bu tilsimdən xilas etdi.

-Deyəsən, xalça xoşunuza gəldi, hə!

-Bu möcüzədir. Belə şey görməmişəm. Bunu toxuyan yəqin ki, məşhur sənətkardır, dahidir!- deyə professor tez-tez danışmağa başladı.

Frostun sözlərini qocaya tərcümə etdim. O uğunub getdi

-Əşi, siz nə danışırsınız? Nə dahi, nə filan. Bunu mənim arvadım Nubar toxuyur.

Frost qocaya inanmadı.

- Ay Nubar, bir bura gəlsənə. Girmaniyadan bizə qonaq gəlib ee. . - deyə qoca arvadını səslədi.

Qonşu otaqdan addım səsi eşidildi. Qapı açıldı Nubar xala gözləri böyümüş halda özünü içəri saldı.

-Nə? Girmaniyadan? Kimdir, ay Kərim? Yoxsa itgin balamdan bir xəbər çıxıb?

Kərim dayı başını aşağı saldı, ah çəkdi:

-Yox, ay arvad, bunlar başqa adamlardır. Qonağımızdırlar.

Nubar xala ürəyini tutub sakitləşdi. Əl verib bizimlə görüşdü. Xoş gəldin elədi. Professor görüşərkən diqqətlə Nubar xalanın günəşdən qaralıb gobudlaşmış, qocalıqdan dərisi qırışmış nazik barmaqlarına baxdı. O, Nubar xaladan xalçadan bir az to-

xumağı xahiş etdi. Nubar xala gülümsədi, üzünə təbəssüm yayıldı.

- Toxuyun, Nubar bacı,-deyə mən də ehtiramla dilləndim.

O, uşaq kimi qızarıb ərinə sarı baxdı. Kərim dayı gülümsədi:

-Arvad, toxusana, nə durmusan!

Nubar xala hana önündə qoyulmuş alçaq, uzun kürsüdə oturdu. Barmaqları bir göz qırpımında hərəkətə gəldi. Ərişlər titrədi.

İlmələr durna kimi düzüldü. O, əlini atıb küçünü qaldırdı, arqac keçdi. Küçünü dartıb həvələməyə başladı. Nəhayət ağ, zağlı qayçını götürüb səliqə ilə çinin uclarını vurdu. Nubar xalanın bilәkləri qalxıb endikcə tarıma çəkilmiş iplərdən çıxan səs qulaqlarımda bahar nəfəsiylə, həyat, gözəllik hissləri ilə dolu bir musiqi kimi əks səda verirdi. Elə bil Nubar xala böyük bir arfa arxasında əyləşib günəş hərarətli bir musiqi bəstələyirdi. Dəqiqələr ötüb keçdikcə üzərinə yaqut səpələnmiş təzə, əlvan çiçəklər xalçadakı gözəlliyi daha da artırırdı. Professor aparatını çıxarıb Nubar xalanın hana arxasında şəklini çəkdi. Nubar xala ayağa qalxdı. Frost Ştayn onun əlini sıxıb minnətdarlıq etdi:

-Bu əllərin, bu barmaqların qiyməti yoxdur... O, çiyinlərini çəkdi. - Mən söz tapa bilmirəm,- dedi.

Kərim dayı bizi stol başına dəvət etdi. Əyləşdik. Araya çökmüş ani sakitliyi bayırda xoruzun qı-

ğıldaması pozdu. Nubar xala elə bil bi fürsəti gözləyirdi.

-Kişi, bu xoruzun özü səksəkəlidir. Bizi də axırda səksəkəli edəcək ha. Onun bir duasını yazsana.

-Bu saat, arvad,-deyə Kərim dayı itiləmək üçün bıçağı çətilə çəkdi və bayıra çıxdı. Xoruz qanadlarını şappıldatdı. Haray qopardı... Səsi xırıldadı. Yenidən sakitlik oldu. Bu arada Nubar xala süfrəyə meyvə gətirdi. Sərin şərbət payladı. Kərim dayı içəri daxil oldu. İri qırmızı tüklü ları xoruzu astanada yerə qoydu.

-Arvad, dur bir bunu əlüstü pöşələ. Qonaqlar acdır. Yoldan gəliblər.

Az keçmədi ki, qızardılmış xoruz ətinin ətri evi doldurdu.

Xörəkdən sonra Kərim dayı qədim abidələr haqqında gözəl əfsanələr danışdı. Teymurləngin Əlincə qalasını ala bilməməsi haqqındakı söhbət professorda heyrət doğurdu. Artıq gecədən xeyli keçmişdi. Nubar xala durub yerimizi rahatladı. Ərarvad bizə şirin yuxu arzulayıb o biri otağa keçdilər.

Səhər professor tez oyandı. Bayıra çıxdı. Uca, mavi dağların arxasından yenicə boylanan günəş nəhəng portağala oxşayırdı.

Adama elə gəlirdi ki, əlini atsan çatacaqdır. Frost nəzərlərini bu gözəl mənzərədən ayırmadan:

-Günəş də sizə yaxındır!- dedi.

Onun gözləri alacalanıb böyümüş, sifətində

qürur və lovğalıqdan əsər-əlamət belə qalmamışdı.

Kərim dayı bizi kənddən çıxana qədər ötürdü. Görüşüb ayrıldıq. Professor dərin düşüncələrə qərq olmuşdu.

Ayağına toxunan iri saxsı parçası onu bu xəyaldan ayırdı.

Əyilib saxsını əlinə götürdü. O tərəf bu tərəfinə baxıb acı-acı gülümsündü.

- Mən bu qədim daşları, naxışları axtarırdım. Onları yaradanları tapdım. Bu torpağın əsiri oldum. Belə əsirlikdə adam vətən həsrəti duymur.

ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

NUHDABAN

(Ordubad)

Rəvayətə görə, Nuhun gəmisi Gəmiqayada quruya oturmuşdu. Oğlanları bir gün gördülər ki, uca dağlar od tutub yanır. Gəmi oturan dağ da tüstüsüz alova bürünüb. Özləri də od-alovun içindədirlər. Qorxudan bilmədilər neyləsinlər. Haray-həşir salıb bağırdılar.

-Aman tanrı! Günahımız nədi ki, indiyədək tufanda qaldıq, indi də od-alova düşmüşük.

Amma bu qorxu çox çəkmədi, gördülər ki, od-alov onları yandırmır. Yaşıl çəmənə, gülə, çiçəyə də toxunmur.

-Bu nə sirrdir?-dedilər. -Dağ da yanar?

Onlar atalarının yanına gedib bu sirri soruşdular.

Nuh Nəbi dedi:

-Gördüyünüz elə belə od deyil. Sirli, möcüzəli oddur. Bu torpağın mayası oddan yoğrulub. Burda hər şey öz qidasını oddan-alovdan alır. Yanan dağların biri Gəmiqaya, biri İlandağ, biri Ağrı dağıdır. Bu arada yurd salın. Dediyim üc dağ sizə qüvvət, bərəkət verəcək. Bərkdə şərdən , yağıdan qoruyacaq.

Nuh Nəbi sözünü qurtardı. Dayandığı yerdən bir addım irəli atdı, ayağı torpağa gələndə pəncəsi yox, dabanı yerə dəydi. Oğulları həmin yerdə yurd saldılar, adına da "Nuhdaban"dedilər.

İLANDAĞ

(Culfa rayonu)

Rəvayətə görə, dünyada iki ilanlar padşahı varmış. Bunlardan biri Naxçıvanın Əlincə çayındakı İlandağda, biri də İranın Diri dağında imiş. İlanlar padşahlarının böyük mülkü, tükənməz xəzinələri varmış. Ancaq bu mülk, xəzinə İrandakı ilanlar padşahına az görünürmüş. Tamah güc gəlib onu qonşu malına şirnikdirmişdi.

Bir gün İrandakı ilanlar padşahı güclü qoşunla Araz çayını keçib İlandağa hücum edir. Ölümdirim vuruşması başlanır. Onlar bir-birini didib dağıdır, boğub öldürürmüşlər. İlanların qanı dərələrdə selə dönür, Əlincə çayıyla Araz çayına qarışır, suları qızardır.

İlandağdakı ilanlar sayca çox olan düşmənə qarşı mərdliklə vuruşub, yeddi gün, yeddi gecə çəkən qanlı döyüşdə qalib gəlirlər. Onlar düşməni sıxışdırıb qovurlar.

Deyilənə görə, ilanların qızartısı indi də İlandağın qayalarında, bir də yanındakı təpələrdə görsənir.

OĞLANQALA-QIZQALA

(Şərur rayonu)

Arpaçay vadisində iki tayfa yaşayırmış. Bu tayfalar həmişə torpaq üstə dava salarmış. Bunlardan biri Muğanlı tayfası, o biri də Aranlı tayfası ad-

lanırmış. Muğanlı tayfa başçısının igid bir oğlu, Aranlı başçısının gözəl bir qızı varmış. Bir günləri oğlan bu tayfadan, qız da o tayfadan çayın qırağına yenirlər. Uzaqdan-uzağa bir könüldən min könülə bir-birinə aşiq olurlar. Oğlan çayı üzüb qızın yanına keçir. Görüşürlər, bir-birinə könül verib, əhd-peyman bağlayırlar. Heç kəs bilməsin deyə hər gün gecə görüşməyi qərarlaşdırırlar. Şərtləşirlər ki, görüşdən qabaq oğlan o tayda Qaratəpə dağında tonqal qalamalıdır, qız da bu tayda. Aralarında söz kəsirlər ki, kim əhdə vəfasız çıxsa özün tonqalda yandırsın.

Bu yolla onlar çox görüşürlər. Bir gün oğlan tonqal qalayıb gözləyir. Görür o tayda tonqal yanmır. İkinci gecə də belə keçir. Üçüncü gün oğlan qızın toyu olduğunu eşidir. Anlayır ki, sevgilisi əhdinə vəfasız çıxıb. Gen dünya oğlana dar gəlir. Fikirləşir ki, bundan sonra onun yaşamağı nə yaşamaqdı. Özünü qaladığı tonqala atır. Amma vəfasız olmadığından odda yanmır. Ağ bir daşa dönür.

Deyilənə görə, o vaxtdan el arasında bura Oğlanqala, qızın yaşadıgı yer də Qızqala adlanır. Camaat indi də Axır çərşənbədə Ağ daşda od qalayır, oranı müqəddəs yer kimi tanıyır.

GƏLİN QAYASI

(Şahbuz rayonu)

Qədim zamanlarda Şahbuzun çox ucqar kəndlərindən birində gözəlliyi aləmə yayılan sərv boylu bir gəlin varmış. Əri düşmənlə vuruşmada həlak olubmuş.

Gəlinin qumral gözləri, ilan kimi qıvrılan qoşa hörüyü cavanların canına od salarmış. Gəlin isə öz gözəlliyinə baxıb qüssələnərmiş. Yaxından, uzaqdan gələn elçilər həmişə kor-peşman geri qayıdarmış.

Günlərin bir günü gəlini tanımadığı bir oğlan qaçırır. Oğlan qorxusundan gəlini dağlara aparır. Onlar başı göylərə dəyən Toğlu qayayla Salvartı dağının arasından keçəndə gəlin çırpınıb oğlanın əlindən çıxmaq istəyir, ancaq bacarmır. Əlacsız qalan gəlin uca qaya başında üzünü göylərə tutub aman istəyir. . .

Daşa dönmüş gəlinin abidəsi o vaxtdan el arasında "Gəlin qayası" adıyla tanınır. . .

Əzizinəm Alınca,
Əl çatmazdı Alınca.
Üzülüb əldən getdim
Yar könlümü alınca.

Corabın ağına bax,
Dəstələ, bağına bax.
Mən yadına düşəndə
Naxçıvan dağına bax.

Görünən Savalandı,
Sultandı, sov alandı.
Nə dərdimə dərman var,
Nə yaram sağalandı.

Mən aşıq Ordubada,
Yol gedir Ordubada.
Sərkərdə qoçaq olsa,
Heç verməz ordu bada.

Naxçıvanda duzdumu,
Duz altında buzdumu?!
Gözəllər dəstə-dəstə,
Əllidimi, yüzdümü?!

Naxçıvandı bu yerlər,
Özgə candı bu yerlər.
Batabat tamaşadı,
Al-əlvandı bu yerlər.

Naxçıvanın düzü var,
Billur kimi duzu var.
İki könül bir olsa,
Kimin ona sözü var.

Arazım çağlar, axar,
Dörd yanı bağlar, axar,
Əlim suyuna çatmaz,
Sinəmi dağlar, axar.

Arazım dayanmadı.
Dağları oyanmadı.
Sürünü qurd apardı,
Çobanı oyanmadı.

Əzizinəm, xan Araz,
Oymaqdan axan Araz,
Əlim əlinə çatmır
Yaxından axan Araz.

APARDI SELLƏR SARANI

Arpaçayı aşdı-daşdı,
Sel Saranı aldı qaçdı.
Qara gözlü, qələm qaşdı,
Apardı sellər Saranı.

Arpaçayı onu aldı,
Aparıb dəryaya saldı.
Çilovdarı dalda qaldı,
Apardı sellər Saranı.

O yan qumdu-bu yan qumdu,
Sara atdan düşcək cumdu,
Çilovdar gözünü yumdu,
Apardı sellər Saranı.

Qırx adamla çıxdıq düzə,
Sarğı başmaq göldə üzə.
Bıçaq batsın yaman gözə
Apardı sellər Saranı.

Arpanın çayı qurusun,
Kökünə balta vurulsun.
Çilovdar, əlin qurusun
Apardı sellər Saranı.

Düyünü tökdüm qazana
Qaldı uzana-uzana.
Qismətmiş qəbir qazana
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Aşıq Əli Xanxanım oğlu

AŞAN YOLLAR YAR YANINA GEDİRMİ?

Qarşıda dayanan Ucubiz dağı,
Aşan yollar yar yanına gedirmi?
Gözəllər yığnağı-Qızlar bulağı,
Aşan yollar yar yanına gedirmi?

Aparıb ayağım darvaza daşı,
Sinəmi çürüdüb gözümün yaşı.
Səndən xəbər alım yoxuşun başı,
Aşan yollar yar yanına gedirmi?

Hamıdan gözəldi əmimin qızı,
Elə bil doğubdu bir dan ulduzu.
Səndən xəbər alım, Kərkinin düzü,
Aşan yollar yar yanına gedirmi?

Toyu çalın, yarım tutsun oyunu,
Bir görəydim qamətini, boyunu.
Yedik, içdik xan Kərkinin suyunu,
Aşan yollar yar yanına gedirmi?

Çəkilsin üstündən haramı, yağı,
Olsun hər tərəfin gözəl yığnağı.
Pənahım sənədir Ələkuçan dağı,
Aşan yollar yar yanına gedirmi?

Gəldik çıxdıq Əyricənin belinə,
Durub baxdıq Ələsgərin elinə,
Heyran qaldıq çiçəyinə, gülünə,
Aşan yollar yar yanına gedirmi?

Dağılıb Əlinin dövləti-varı,
Ondan üz döndərib bütün simsarı.
Xanxanım oğlundan soruşun barı,
Aşan yollar yar yanına gedirmi?

SƏHNƏYLƏ AŞIQ MƏMMƏDCƏFƏRİN DEYİŞMƏSİ

Səhnə:
Bizdən salam olsun, ay gələn aşıq,
Nə tərəfdən bu meydana gəlibsən?
Məgər eşitmədin adı-sanımı,
Ya dəlisən, ya divana, gəlibsən?

Aşıq Məmmədcəfər:
Əslim Kəngərlidi, yerim Naxçıvan,
Gəşt eləyib bu meydana gəlmişəm,
Dost yolunda gərək qoyam sərimi,
Yusif kimi o zindana gəlmişəm.

Səhnə:
Könül havalınıb gəzər cahanı,
Tanımaram xanı, bəyi, paşanı,
Səndə yoxdu kamilliyin nişanı,
Duz satansan, sən karvana gəlibsən.

Aşıq Məmmədcəfər:
Gözəl, gəl artırma dərdi, amandı,
Boynuma salmısan eşqi-kəməndi.
Mətahım duz deyil, yaqut-yəməndi,
Mən sərrafam, gövhər-kana gəlmişəm,

Səhnə:
Dürüst danış, dürüst söylə sözünü.
Pərvanə tək oda salma özünü.
Mən Səhnəyəm, oyduraram gözünü,
Qəza tutub, bu meydana gəlmisən.

Aşıq Məmmədcəfər:
Mən usta Cəfərəm, baxma qıyqacı,
O şirin dilini eyləmə acı,
Bir dərdə düşmüşəm, yoxdu əlacı,
Sən təbibsən, mən dərmana gəlmişəm.

Batabat mənzərəsi

Narbənd

Batabat yaylağı, Üzən ada

Narbənd

Göygöl

MÜNDƏRİCAT

Elman Həbib "Torpağın yaşıdı" 4

KLASSİK ƏDƏBİYYAT

Cəlil Məmmədquluzadə "Cümhuriyyət" 20
Hüseyn Cavid "Qəzəl" 25
Məmməd Səid Ordubadi "Qanlı illər" əsərindən:
"Kədərli Naxçıvan hadisələri" 26

POEZİYA

Hüseyn Nadim Naxçıvani "Millətə" 38
Fəqir Ordubadi "Kalbalı xan Naxçıvaniyə" 39
Məmməd Araz "Naxçıvanım mənim" 41
İslam Səfərli "Naxçıvan yadigarı" 42
Adil Babayev "Tarımın sarı simi" 45
Hüseyn Razi "Naxçıvanam - Azərbaycan gözəliyəm" 46
Əliyar Yusifli "Muxtar respublikam" 55
Müzəffər Nəsirli "Mənim Naxçıvanım" 56
Kəmalə Ağayeva "Səndə tarixlərin çox nişanı var..." 59
Əhməd Mahmud "Naxçıvan" 61
Hüseyn Əzim "Naxçıvan" 63
Məşkur Əkbər "Naxçıvan" 64
Əliheydər Qənbər "Nəqşi-cahandır" 66
Zeynal Vəfa "Əlincə" 73
Elmira Qasımova "Mənim respublikam" 74
Davud Ordubadlı "Naxçıvana getmişdim" 76
Validə Hüseynova "Burda sən qonaqsan, mən ev yiyəsi". . . 78
Emil Mehdiyev "Ordubaddadır" 79
Kərim Faiq " Cavanlaşan diyarım" 81
Əbülfəz Naxçıvanlı "Qoca Şərqin dilbər qızı" 82
Altay Tağızadə "Şərura gəlsin" 83
Muxtar Qasımzadə "Köhnə qala haqqında ballada" 84

Vaqif Məmmədov "Gəmiqaya şeirləri" 88
Asim Yadigar "Dünyanın bəzəyi" 102
Xanəli Kərimli "Naxçıvanım mənim" 105

POEMALAR

İbrahim Yusifoğlu "Bu nəğməm sənədi,
doğma Naxçıvan". 108
Həsənəli Eyvazlı "Naxçıvan haqqında ballada" 133
Elxan Yurdoğlu "Bu gözəllik bizim üçün deyilmi?" 146

PUBLİSİSTİKA

Hüseyn İbrahimov "Bahar" oçerki 158

NƏSR

Həmid Arzulu "Günəş də bizə yaxındır" 172

ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

"Nuhdaban", ... 186
"İlandağ", ... 187
"Oğlanqala-Qızqala", ... 187
"Gəlin qayası", ... 189

Bayatılar 190

MAHNI YARADICILIĞI

Apardı sellər Saranı. 192

AŞIQ YARADICILIĞI

Aşıq Əli Xanxanım oğlu "Aşan yollar
yar yanına gedirmi?" 194
Səhnəylə Aşıq Məmmədcəfərin deyişməsi 195

DÜNYANIN BƏZƏYİ

Antologiya

Yığılmağa verilmiş 20.04.2009. Çapa imzalanmış 06.05.2009.
Formatı 60X90 1/8 “Tayms” qarnituru. Ofset çap üsulu.
Həcmi 26.00 ç.v. Sifarişlə. Tirac 1000 nüxsə.

4700000000
053-2009

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi. 1.